9 avqust 2019-cu il
№29 (8844)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

## Bu sayımızda

**XXXI Beynəlxalq İnformatika Olimpiadasının iştirakçılarına** ⇨səh.2

**Təhsil naziri Astarada vətəndaşları qəbul edib** ⇨səh.2

**Ağ-boz geyimli DOST...** ⇨səh.5

**Məktəbli idmançılar üçün yay düşərgəsi** ⇨səh.7

# Dünya məktəbliləri Bakıda yarışır

### Azərbaycan 31-ci Beynəlxalq İnformatika Olimpiadasına ev sahibliyi edir



"Bu yarışa çox ciddi hazırlaşmışdım. Çünki bilirdim ki, olimpiadalarda güclü iştirakçılar mübarizə aparır. İnformatika üzrə olimpiadada artıq üçüncü dəfədir iştirak edirəm. Medal qazanmaq üçün əlimdən gələni etdim".

Fizika-Riyaziyyat və İnfotmatika Təmayüllü Liseyin 10-cu sinif şagirdi Abutalıb Namazov Bakıda keçirilən 31-ci Beynəlxalq İnformatika Olimpiadasında Azərbaycanı təmsil edən komandanın üzvlərindən biridir. Fizika-Riyaziyyat və İnfotmatika Təmayüllü Liseyin Azərbaycan komandasının üzvü olan başqa bir şagirdi Murad Eynizadə isə artıq 3 ildir olimpiadaya hazırlaşır: "Olimpiadaya hazırlaşmazdan əvvəl öz məktəbimizdə respublika informatika olimpiadasında iştirak etmişəm. Daha sonra Təhsil Nazirliyi tərəfindən təşkil edilən təlim məşğələlərinə qatılmışam. Bu məşğələlərdə bizə yerli müəllimlərlə yanaşı, xarici mütəxəssislər də təlimlər keçib. Əlbəttə ki, hər kəs I yeri qazanmaq istəyər. Mən də bunun üçün çalışdım".

Bu günlərdə dünyanın 88 ölkəsindən olan Abutalıb və Murad kimi yüzlərlə şagird Bakıda toplaşıb. Çünki avqustun 4-dən şəhərimizdə 31-ci Beynəlxalq İnformatika Olimpiadasına start verilib.

⇨Ardı səh.3

# Peşə təhsili zamanın tələbinə çevrilir

Avqustun 5-dən 2019-2020-ci tədris ili üzrə dövlət peşə təhsili müəssisələrinə elektron qaydada sənəd qəbulu prosesinə start verilib. Artıq peşə təhsili müəssisələrində oxumaq istəyən 4000-dən artıq şəxsin müraciəti qeydə alınıb.

### Dördüncü "ASAN" qəbul

Qəbul prosesinin rahatlığını və şəffaflığını təmin etmək məqsədilə artıq dördüncü ildir ki, peşə təhsili müəssisələrinə qəbul Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ("ASAN xidmət") arasındakı əməkdaşlıq çərçivəsində həyata keçirilir. "ASAN xidmət" mərkəzlərinin fəaliyyət göstərmədiyi şəhər və rayonlar üzrə vətəndaşlara müvafiq peşə təhsili müəssisələrində elektron qaydada qeydiyyat üçün şərait yaradılır. Peşə təhsili müəssisələrinə qəbul şəhadətnamə və ya attestat əsasında müvafiq fənlərin orta balı nəzərə alınmaqla müsabiqə yolu ilə həyata keçirilir.

### Birini seç

Beləliklə, vətəndaş harada qeydiyyatda olmağından, harada yaşamağından asılı olmayaraq, hətta istirahət etdiyi yerdən belə, yaxınlığında olan "ASAN xidmət" mərkəzinə gələrək yiyələnmək istədiyi ixtisasları seçə və seçdiyi 5 ixtisasdan biri üzrə təhsil ala bilər. Sadəcə beşini seçmək imkanı verilən siyahıda nə az, nə çox, 145 ixtisas var. Həm ödənişli, həm də dövlət sifarişi əsasında hazırlığı təşkil ediləcək ixtisasların 14-ü - "İsitmə-soyutma, havalandırma sistemləri və avadanlıqları üzrə montajçı", "sənayedə quraşdırma işləri üzrə usta", "plastik boru qaynaqçısı", "üzlükçü dizayner", "turizm təşkilatçısı", "torna və frezer dəzgahların operatoru", "turizm sahəsində iaşə üzrə mütəxəssis", "rəngsaz və suvaq ustası", "avtomobil diaqnostikası və təmiri ustası", "elektronika ustası", "inşaat ustası", "veb dizayner və proqram təminatçısı", "avtomatika üzrə usta", "kənd təsərrüfatı məhsullarının saxlanılması və anbarlanması üzrə logistika mütəxəssisi" peşə təhsili təsnifatına yeni daxil edilib. 9 ixtisasın - "çörək ustası", "daş frezerçisi", "gəmi tornaçısı", "hərəkət tərkibinin təmiri çilingəri (Metropoliten üzrə)", "misgər", "növbə matorçusu", "növbə matrosu", "paylayıcı qurğuların təmiri və istisması üzrə elektrik montyoru", "Yüksəkgərginlikli hava xətlərinin və kontakt şəbəkələrinin quraşdırıcısı üzrə elektrik montyoru-xətçi" - isə adı peşə təhsili təsnifatında olsa da, indiyədək onlar üzrə kadr hazırlanmayıb. Beləliklə, peşə məktəblərində növbəti tədris ilində hazırlığı təşkil ediləcək 145 ixtisasdan 23-ü yenidir.

⇨Ardı səh.8

# Kimlər direktor olacaq?

Dövlət ümumi təhsil müəssisələrinə direktor vəzifəsinə işə qəbul üzrə müsabiqənin test imtahanı mərhələsi başa çatıb. İmtahanlara 2000-dən çox namizədin qatılması nəzərdə tutulsa da, 1643 namizəd iştirak edib. Müsabiqəyə 472 vakant yer çıxarılıb. İmtahanda namizədlər arasında ən yüksək nəticəni Günel Allahqulu qızı Həmidova əldə edib. Qubadlı rayon S.Rəhimov adına Mahruzlu kənd tam orta məktəbinin tarix müəllimi Günel Həmidova 52 bal toplayıb.

### 4 mərhələdən keç

Bəs, kim məktəb direktoru ola bilər? Direktor vəzifəsinə işə qəbul üzrə müsabiqəyə pedaqoji və ya idarəetmə ixtisas sahələri üzrə ali təhsilli kadrlar buraxılır. Ancaq həmin kadrlar 5 ildən az olmayaraq pedaqoji staja malik olmalıdırlar. Lakin təhsilin təşkili və idarə olunması ixtisası üzrə elmi dərəcəsi və elmi adı olanlar üçün bu tələb 3 il müəyyən edilib. Bundan başqa, direktorluğa namizədlərin mütləq hazırda ümumi təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olması da əsas şərt hesab edilir.

⇨Ardı səh.4

# Təhsilin sərhəddi olmamalıdır

### Şagirdlə müəllimin bərabər olduğu məktəb

Moskvanın 45 nömrəli orta məktəbini əvvəllər ittifaq, indi isə Rusiyanın pedaqoji mühitində tanımayan yoxdur. Bu populyarlığın banisi isə təhsil ocağının unudulmaz direktoru və yaradıcısı Leonid Milqramdır. Milqram düz 42 il ərzində bu məktəbi idarə edib. Onun direktor olduğu dövrlərdə siniflərdə Selinceri oxuyur, "ABBA"ya qulaq asırmışlar. Hələ SSRİ dönəmində ilk olaraq məhz bu məktəbin şagirdləri ABŞ-a səfər edə bilmişdilər. O vaxtın şagirdləri indi nənə və baba olaraq nəvələrini 45 nömrəli məktəbə oxumağa yola salırlar...

### "Vətən xaini"nin oğlu

"Vətən xaini"nin oğlu və İtaliya Kommunist Partiyasının funksionerlərindən birinin kürəkəni olması səbəbindən partiyada Milqramın məktəb direktoru olmasına isti baxanlar yox səviyyəsində idilər. Onun dostları tez-tez zarafat edirmişlər ki, "sənin tərcümeyi-halın başına bəladır". Bununla belə, 1960-cı ildə qərara alınır ki, L.Milqram məktəb direktoru vəzifəsinə təyin olunsun. Məktəbin çiçəklənmə dövrü də məhz Milqramın direktor olduğu qarşıdakı 42 ilə təsadüf edir.

Leonidin uşaqlığı çox qısa və olduqca çətin keçib. Atası, sovet kəşfiyyatçısı İsidor Milqram 1937-ci ildə həbs edilib və güllələnib. Buna baxmayaraq, L.Milqram hər zaman atası ilə fəxr edib və ona bənzəməyə çalışıb. Tezliklə ögey anası, aktrisa Yevlaliya Uspenskaya da həbs və sürgün edilir. Yay düşərgəsindən evə dönən Leonid qapılarının möhürlü olduğunu görür və tənha qaldığını başa düşür. Böyük çətinliklərlə o, Moskva Dövlət Universitetinin tarix fakültəsinə qəbul olunur, ancaq müharibə başladığından təhsili yarımçıq qalır. Milqram müharibəni ilk günündən sonunadək 40 saylı artilleriya diviziyasında keçirir. Müharibədən sonra Leonid İtaliya kommunistlərinin liderlərindən birinin qızı Mirella Pastore ilə ailə həyatı qurur. Peşə fəaliyyətinə Arxangelskdə, texnikumda tarix müəllimliyi ilə başlayır. Ardınca Moskvadakı 106 nömrəli (sonra 45 nömrəli olur) məktəbə təyinat alır, burada böyük nüfuz qazandığından ona direktor olmağı təklif edirlər.

### Etimad və nüfuz

Milqram məktəb direktorluğunun mənasını özünün dediyi kimi "insan yetişdirmək"də görürdü.

⇨Ardı səh.5

# Müəllimliyə namizədlər iş yeri seçir

Bu həftə müəllimlərin işə qəbulu üzrə müsabiqənin növbəti mərhələsinə start verilib. Belə ki, avqustun 7-dən vakansiya seçimi mərhələsi başlayıb. Artıq 22 mindən çox namizəd seçimini edib. Ancaq cəmi 2 minə yaxın namizəd seçimi ilə bağlı qərarını dəqiqləşdirərək ərizəsini təsdiq edib.

Vakansiya mərhələsi ayın 14-nə qədər davam edəcək. Namizədlər qarşıdakı 5 gün ərzində elektron ərizələrində müvafiq bölməyə daxil olaraq imtahan fənninə uyğun 8 vakant yer seçəcək, qərarını qətiləşdirəndən sonra ərizələrini təsdiq edəcəklər. Xatırladaq ki, elektron ərizəsini təsdiq etməyənlər müsabiqədə iştirak edə bilmir.

2019-2020-ci tədris ili üçün keçirilən müəllimlərin işə qəbulu üzrə müsabiqənin vakansiya mərhələsinə həm builki, həm də ötənilki işə qəbul imtahanlarında iştirak edənlər buraxılıb. Yəni, həm 2018-ci ildə, həm də bu il imtahan verən namizədlərin test imtahanlarının nəticələri nəzərə alınır. Ancaq namizəd bu il test imtahanı veribsə, vakansiya seçimi mərhələsinə ötənilki test imtahanının nəticələri ilə qatıla bilmir.

Müsabiqənin indiki mərhələsində builki və ötənilki müəllimlərin işə qəbulu imtahanlarında müvafiq keçid balı toplayanlarla yanaşı, 10 ildən çox fasiləsiz olaraq müddətsiz müqavilə ilə ümumi təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olmuş və 3 ildən az olmayan müddətdə işdən ayrılmış, diaqnostik qiymətləndirilmədə iştirak etmiş namizədlər də iştirak edir.

⇨Ardı səh.4



# YENİ dünyaya müəllimlər

### STEM təhsil gələcəyimizi müəyyən edir

Səh.6

# XXXI Beynəlxalq İnformatika Olimpiadasının iştirakçılarına

Hörmətli olimpiada iştirakçıları, əziz məktəblilər!

Sizi - dünyanın müxtəlif guşələrindən Bakıya toplaşmış XXXI Beynəlxalq İnformatika Olimpiadasının iştirakçılarını səmimi-qəlbdən salamlayır, hamınıza uğurlar arzu edirəm. Ümidvaram ki, olimpiada informatika sahəsində yeni istedadların üzə çıxarılması, gənclərin informatikaya marağının daha da güclənməsi və təmsilçi ölkələrin sıralarının genişlənməsi işinə öz töhfəsini verəcəkdir.

Biliklərə əsaslanan cəmiyyətin formalaşdığı və rəqəmsal bacarıqların son dərəcə zəruri olduğu indiki dövrdə informasiya-kommunikasiya texnologiyaları elmi potensialın vacib göstəricilərindən birinə çevrilmişdir. İnformatika iqtisadiyyatda, elmdə və cəmiyyət həyatında böyük əhəmiyyətə malikdir. Dünya informasiya şəbəkəsinin yaradılması isə kompüter biliklərinin rolunu xeyli artırmışdır.

Beynəlxalq İnformatika Olimpiadası bu baxımdan qarşınızda yeni üfüqlər açır. Kompüter elmləri üzrə ən mötəbər müsabiqələr arasında özünəməxsus yer tutan bu bilik yarışı arzularınızın gerçəkləşməsi və həyat yolunuzun müəyyənləşməsinə, əlbəttə, ciddi təsir göstərəcəkdir.



Hazırkı olimpiadanın Azərbaycanda təşkili təsadüfi deyildir. Belə ki, informasiya cəmiyyətinin qurulması istiqamətində mühüm addımlar atan ölkəmizdə məktəblilər arasında olimpiada hərəkatı ildən-ilə geniş vüsət almaqdadır. Məktəblilərimiz beynəlxalq olimpiadalarda öz müvəffəqiyyətlərinin davamlı inkişafına nail olaraq, son illər ərzində ümumilikdə yüz altmış medal qazanmışlar.

Bu olimpiada günlərində siz, eyni zamanda, Azərbaycanın keçmişi, bu günü və zəngin tarixi-mədəni dəyərləri ilə yaxından tanış olmaq, eləcə də yeni-yeni dostlar tapmaq imkanı əldə edəcəksiniz. Olimpiadanın uzun illər hər birinizin yaddaşında xoş xatirə kimi qalacağına əminəm.

İnanıram ki, sizə bəslənən ümidləri gələcək fəaliyyətinizdə layiqincə doğruldacaqsınız.

Hörmətlə,

**Mehriban ƏLİYEVA,**
**Azərbaycan Respublikasının**
**Birinci vitse-prezidenti**

*Bakı şəhəri, 5 avqust 2019-cu il*

## Təhsil naziri Astarada vətəndaşları qəbul edib

Avqustun 7-də Təhsil naziri Ceyhun Bayramov Astara şəhərindəki Heydər Əliyev Mərkəzində Astara, Lerik və Lənkəran rayon sakinlərini qəbul edib.

Qəbuldan əvvəl Təhsil naziri Ceyhun Bayramov və Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin avqust ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda qeyd olunan rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Qəbulda vətəndaşların müraciətləri əsasən, müəllimlərin işə qəbulu və yerdəyişməsi, ali təhsil müəssisələrinə bərpa olunma, həmçinin digər məsələlərlə bağlı olub.

Nazir vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək onların aradan qaldırılması, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

***

Avqustun 2-də Təhsil nazirinin müavini Firudin Qurbanov Masallı şəhərindəki Heydər Əliyev Mərkəzində Masallı, Yardımlı və Cəlilabad rayon sakinlərini qəbul edib. Qəbulda həmin rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Qəbul mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin avqust ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilib.

Qəbulda vətəndaşlar əsasən müəllimlərin işə qəbulu və yerdəyişməsi, tələbələrin köçürülməsinə (transfer) aid məsələlər ilə bağlı müraciət ediblər.

Nazir müavini vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlar verib.

F.Qurbanov, həmçinin Masallı Uşaq-Gənclər İdman Şahmat Məktəbi, Uşaq yaradıcılıq və inkişaf mərkəzi və Masallı Dövlət Regional Kollecində yaradılan şəraitlə tanış olub.

## Mingəçevir Dövlət Universitetinin yeni rektoru kollektivə təqdim edilib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 31 iyul 2019-cu il tarixli Sərəncamı ilə Mingəçevir Dövlət Universitetinin rektoru vəzifəsinə təyin olunmuş Şahin Bayramov universitetin kollektivinə təqdim edilib.

Rektoru kollektivə təqdim edən Təhsil naziri Ceyhun Bayramov Ş.Bayramovun iş təcrübəsi və elmi fəaliyyəti barədə məlumat verib.

Nazir “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın icrası istiqamətində əhəmiyyətli işlər görüldüyünü diqqətə çatdırıb. C.Bayramov bildirib ki, bu gün elmi nailiyyətlər əsasında yaranan innovasiyalardan istifadə etmək vacib bir məsələdir və ölkənin təhsil sisteminin başlıca vəzifələrindən biri də insan kapitalının inkişafına nail olmaqdır.



Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi altında təhsil sahəsində uğurlu islahatlar həyata keçirildiyini diqqətə çatdıran C.Bayramov bu istiqamətdə qarşıya qoyulan vəzifələrin, verilən tapşırıqların icrası ilə bağlı universitet kollektivinə müvafiq tövsiyələrini verib.

Mingəçevir Dövlət Universitetinin yeni rektoru Ş.Bayramov ölkə Prezidenti İlham Əliyev tərəfindən ona göstərilən yüksək etimada görə təşəkkür edib və bu etimadı doğruldacağını bildirib.

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov da öz növbəsində Mingəçevirin təhsil nailiyyətlərindən danışıb və bildirib ki, əsas məqsəd gələcəyin vətənpərvər, ziyalı vətəndaşını, yüksək səviyyəli mütəxəssisini hazırlamaqdan ibarətdir. İ.İsmayılov yeni rektora gələcək fəaliyyətində uğurlar arzulayıb.

## UNEC-də magistrlərin elmi tədqiqatlar aparması istiqamətində yeniliklər tətbiq olunur

Bu tədris ilində Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin 4 magistrinin elmi məqaləsi dünyanın nüfuzlu “Web of Science” elmi platformasına daxil edilib.

UNEC-dən AZƏRTAC-a bildirilib ki, hazırda mərkəzdə magistrlərin elmi tədqiqatlar aparması istiqamətində yeniliklər tətbiq olunur. Mərkəzdə tədqiqat prosesinin effektiv idarə olunması və magistrlər üçün imkanların artırılması məqsədilə müxtəlif tədqiqat mərkəzləri yaradılıb. Universitet tərəfindən yaradılan imkanlarla magistrlər dünyanın nüfuzlu ali təhsil müəssisələrində tədqiqat aparmaq və həmin universitetlərin professor-müəllim heyətindən məsləhətçi elmi rəhbər seçmək imkanına malikdirlər. Magistrlərə tədqiqat prosesində universitetin professor və müəllim heyəti ilə yanaşı, doktorantura təhsilini Avropanın və dünyanın müxtəlif ölkələrində almış gənc alimlər elmi rəhbərlik edirlər.

## “Sabahın alimləri” IX Respublika Müsabiqəsinin keçirilməsi haqqında

### Azərbaycan Respublikası Təhsil nazirinin əmri

Azərbaycan Respublikasında fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin IX-XI siniflərində təhsil alan şagirdlərin elmi axtarışlara sövq edilməsi, onların elmi və yaradıcılıq fəaliyyətinin stimullaşdırılması, elmi tədqiqat işinə meyli olan istedadlı şagirdlərin aşkar edilməsi, həmçinin yüksək elmi tədqiqat nəticələri əldə etmiş Azərbaycan məktəblilərinin seçilib ABŞ-da keçirilən İntel İSEF - Beynəlxalq Elm və Mühəndislik Sərgisinə göndərilməsini təmin etmək məqsədi ilə

**ƏMR EDİRƏM:**

**1.** 2020-ci il 11-13 fevral tarixlərində İntel İSEF - Beynəlxalq Elm və Mühəndislik Sərgisi çərçivəsində “Sabahın alimləri” IX Respublika Müsabiqəsi keçirilsin.

**2.** Ümumi təhsil müəssisələrinin direktorları:

2.1. 2019-cu il 12 oktyabr tarixindən etibarən şagirdlərin *www.sabahinalimleri.edu.az* internet səhifəsində onlayn rejimində qeydiyyatdan keçirilməsini təşkil etsinlər;

2.2. 2019-cu ilin 1 dekabr tarixinədək şagirdlər tərəfindən aparılan tədqiqatların başa çatdırılmasını və müsabiqənin tələblərinə uyğun olan sənədlərin hazırlanmasını təmin etsinlər;

2.3. Müsabiqənin Təlim Akademiyasında iştirak etmək istəyən müəllimlərin 2020-ci il 15 yanvar tarixinədək onlayn qeydiyyatdan keçmələrini təmin etsinlər.

**3.** Müsabiqəyə elmi dəstəyin verilməsi Bakı Dövlət Universiteti (E.Babayev), Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (M.Babanlı), Sumqayıt Dövlət Universiteti (E.Hüseynov) və Azərbaycan Texniki Universitetinə (V.Vəliyev) tövsiyə edilsin.

**4.** Naxçıvan Muxtar Respublikasının ümumi təhsil müəssisələrində müsabiqənin təşkili ilə bağlı məsələlərin həlli Naxçıvan Muxtar Respublikasının Təhsil naziri R.Məmmədova həvalə edilsin.

**5.** Bakı Şəhəri üzrə Təhsil İdarəsinə, Gəncə və Sumqayıt şəhərlərinin təhsil idarələrinə, şəhər (rayon) təhsil şöbələrinə müsabiqənin məqsədlərinin təbliğ edilməsi, elmi tədqiqatlara cəlb olunan şagirdlərin əhatə dairəsinin genişləndirilməsi və müsabiqəyə hazırlıqla bağlı məsələlərin həllində ümumi təhsil müəssisələrinə köməklik göstərilməsi tapşırılsın.

**6.** Aparat rəhbərinin müavini, müsabiqənin direktoru (Y.Piriyev):

6.1. Müsabiqənin həmtəşkilatçısı olan nazirlik və təşkilatçıların birgə qərarının layihəsini hazırlayıb Nazirliyin rəhbərliyinə təqdim etsin;

6.2. Müsabiqənin Münsiflər Heyətinin tərkibi haqqında təkliflər hazırlayıb Nazirliyin rəhbərliyinə təsdiq üçün təqdim etsin;

6.3. Müsabiqənin yüksək səviyyədə keçirilməsi üçün hazırlıq işlərini həyata keçirsin;

6.4. Müsabiqənin Təlim Akademiyasının təşkili və treninqlərin keçirilməsini təmin etsin;

6.5. Müsabiqənin keçirilməsi ilə bağlı satın alınması tələb olunan mal, iş və xidmətlər barədə məlumatı Əsaslı Tikinti və Təchizat İdarəsinə təqdim etsin.

**7.** Təhsilin inkişafı proqramları şöbəsinə (E.Əmrullayev) müsabiqədə layihələrin qiymətləndirilməsi və seçim prosesinin həyata keçirilməsinə köməklik göstərilməsi tapşırılsın.

**8.** Əsaslı Tikinti və Təchizat İdarəsi (A.Axundov) müsabiqənin keçirilməsi ilə bağlı müvafiq mal, iş və xidmətlərin satın alınması üzrə lazımi tədbirlərin həyata keçirilməsini təmin etsin.

**9.** Maliyyə şöbəsi (R.Orucov) və Təhsilin iqtisadiyyatı sektoru (K.Vəliyeva) müvafiq mal, iş və xidmətlərin satın alınması ilə əlaqədar aidiyyəti üzrə Əsaslı Tikinti və Təchizat İdarəsinin xərclər smetasında müvafiq vəsaitin proqnozlaşdırılmasını və sifariş əsasında həmin idarəyə vəsaitin ayrılmasını təmin etsinlər.

**10.** Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi (V.Xanlarov) müsabiqəyə texniki dəstəyin verilməsini (müvafiq elektron xidmətlərin göstərilməsi) təmin etsin.

**11.** İnformasiya şöbəsi (E.Məmmədov) əmrin çoxaldılıb aidiyyəti müəssisələrə göndərilməsini, Nazirliyin internet səhifəsində yerləşdirilməsini və “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını təmin etsin.

**12.** Əmrin icrasına nəzarət nazir müavini M.Vəliyevaya həvalə edilsin.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının**
**Təhsil naziri**

*6 avqust 2019-cu il*

# Dünya məktəbliləri Bakıda yarışır

## Azərbaycan 31-ci Beynəlxalq İnformatika Olimpiadasına ev sahibliyi edir

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

Yaşadığımız zaman kəsiminin kompüter əsri, informasiya texnologiyaları dövrü olması bir çox sahələrdə olduğu kimi təhsildə də öz sözünü deyir. Müasir texnologiyalarla tanış olan yeni nəsil ağlı, məntiqi və ən əsası, texniki inkişafa münasibəti ilə özündən əvvəlki nəsli təəccübləndirə bilsə də, uğur əldə etmək üçün uzun müddət hazırlaşmalı, fasiləsiz məşğul olmalıdır. Avqustun 4-dən Bakıda start götürən Olimpiada hərəkatını izləyəndən sonra insan məhz bu qənaətə gəlir. Çünki bu günlərdə Bakıda olan yeniyetmə informatika biliciləri insana, bax, bunu düşündürür.

### 30 il ərzində iştirakçı ölkələrin sayı 13-dən 88-ə yüksəldi

Məlumat üçün qeyd edək ki, informatika üzrə ilk olimpiada UNESCO-nun təklifi və dəstəyi ilə keçirilib. 1989-cu ildə Bolqarıstanda baş tutan həmin yarışa cəmi 13 ölkə qatılıb. 30 il sonra Bakıda ilk dəfə təşkil olunan, sayca 31-ci Beynəlxalq İnformatika Olimpiadasında iştirak üçün milli komandamız da daxil olmaqla, 88 ölkə və regiondan 600-dən çox şagird, müəllim və ekspertdən ibarət rəsmi nümayəndə heyəti qeydiyyatdan keçib. Bu nüfuzlu beynəlxalq yarışda indiyə qədər 24 dəfə təmsil olunan Azərbaycan komandaları 1 gümüş və 4 bürünc olmaqla, ümumilikdə, 5 medal qazanıblar.

### Azərbaycan bu yarışa 24 dəfə qatılıb

İnformatika üzrə beynəlxalq yarışa artıq 24 dəfə qatılsa da, ölkəmiz bu yarışa ilk dəfə ev sahibliyi edir. İnformatika Fənn Olimpiadasının Beynəlxalq Komitəsinə edilən müraciətlə bağlı 2015-ci ildə müsbət qərar verilib. Ötən il 80-dən çox ölkə məktəblilərinin iştirakı ilə Yaponiyada keçirilən olimpiadada "Beynəlxalq İnformatika Olimpiadası-2019"un bayrağı Azərbaycana təqdim edilib. Nazirlər Kabinetinin müvafiq qərarı ilə sədr, Təhsil naziri Ceyhun Bayramov, həmsədr Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramil Quluzadə və fəxri sədr ADA universitetinin rektoru Hafiz Paşayevin rəhbərliyi altında Təşkilat Komitəsi yaradılıb və fevral ayından hazırlıq işlərinə başlanılıb.

### Mətbuat konfransı

Və artıq avqustun 4-dən başlayaraq, olimpiadaya qatılan ölkələr öz komandaları ilə Bakıdadır.

Avqustun 5-də 31-ci Beynəlxalq İnformatika Olimpiadasının (IOI) açılışına həsr olunmuş mətbuat konfransı keçirilib. Təhsil naziri Ceyhun Bayramov, ADA Universitetinin rektoru, "IOI 2019"un fəxri sədri Hafız Paşayev, Olimpiadanın rəsmi qlobal sponsoru "Acer"in Rusiya, Şərqi Avropa və Türkiyə üzrə vitse-prezidenti Qriqori Nizovski jurnalistlərin suallarını cavablandırıblar.

Tədbirdə əvvəlcə ADA Universitetinin prorektoru Fariz İsmayılzadə olimpiada ilə bağlı təqdimatla çıxış edib.

Daha sonra Təhsil naziri, "IOI 2019"un sədri Ceyhun Bayramov informatika üzrə dünya olimpiadasının Azərbaycanda keçirilməsinin ölkə təhsili üçün əhəmiyyətli hadisələrdən biri olduğunu vurğulayıb.

Nazir istedadlı uşaqlarla iş sahəsində həyata keçirilən tədbirlər nəticəsində həm respublika, həm də beynəlxalq olimpiadalarda şagirdlərimizin uğurlarının ildən-ilə yaxşılaşdığını jurnalistlərin diqqətinə çatdırıb. Olimpiada qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu ilə bağlı Nazirlər Kabinetinin müvafiq qərarını xatırladan Ceyhun Bayramov onun olimpiada hərəkatını stimullaşdırmaq məqsədi daşıdığını qeyd edib.

Təhsil naziri beynəlxalq olimpiadada iştirak edən yerli komandanın üzvlərinin yüksək səviyyədə hazırlığının təmin edildiyini və onlara böyük ümid bəsləndiyini əlavə edib.

Olimpiadanın rəsmi qlobal sponsoru "Acer"in Rusiya, Şərqi Avropa və Türkiyə üzrə vitse-prezidenti Qriqori Nizovski "Acer" və "IOI" əməkdaşlığından danışıb. 31-ci Beynəlxalq İnformatika Olimpiadası başa çatdıqdan sonra "Acer" şirkəti 450 ədəd "Aspire" noutbukunu ADA Universiteti və Təhsil Nazirliyinə hədiyyə edəcəyini söyləyib.

### Möhtəşəm açılış

Elə həmin gün Bakı Konqres Mərkəzində 31-ci Beynəlxalq İnformatika Olimpiadasının rəsmi açılış mərasimi keçirilib. Tədbirə olimpiada iştirakçıları ilə yanaşı, dövlət rəsmiləri, xarici ölkə səfirləri və digər qonaqlar qatılıblar. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Prezident Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, Təhsil naziri Ceyhun Bayramov, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə açılışda iştirak ediblər.

Prezident Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva Birinci vitse-prezident Mehriban Əliyevanın "IOI 2019" nümayəndələrinə ünvanladığı rəsmi məktubu tədbir iştirakçılarının diqqətinə çatdırıb.

### İnformatikanın inkişafına töhfə verəcək

Təhsil naziri, "IOI 2019"un sədri Ceyhun Bayramov əvvəlcə ölkəmizdə bu cür nüfuzlu tədbirin təşkilinin əhəmiyyətini qeyd edib. Nazir "IOI 2019"a kimi qət edilən uzun yoldan, görülən işlərdən danışıb. Ölkəmizin Prezident İlham Əliyevin rəhbərliyi ilə müxtəlif beynəlxalq və regional yarış və tədbirlərə ev sahibliyi etdiyini xatırladıb. 2015-ci ildə 47-ci Beynəlxalq Kimya Olimpiadasının da Bakıda keçirildiyini, həmin bilik yarışında şagirdlərimizin 2 medal qazandığını vurğulayaraq, son 6 ildə şagirdlərimizin olimpiadalardan 150-dən çox medal gətirdiyini deyib. Ölkəmizin beynəlxalq elmi olimpiada uğurlarından söz açaraq əldə edilən medalların sayının artacağına ümid bəslədiyini bildirib: "İnanırıq ki, bu cür tədbirlər xüsusilə gənclər arasında dostluq, sülh və mədəniyyətlərarası dialoqun inkişafında böyük rol oynayacaq".

Təhsil naziri dünya məktəblilərinin Bakıda olduqları müddət ərzində Azərbaycan qonaqpərvərliyindən, mədəniyyətimizdən, mətbəximizdən, tariximizdən zövq alacaqlarına inam ifadə edib.

Beynəlxalq olimpiadanın Azərbaycanda keçirilməsinin informatika sahəsinin inkişafına töhfə verəcəyini vurğulayan Ceyhun Bayramov çıxışının sonunda bütün iştirakçılara uğur arzulayıb.

ADA Universitetinin rektoru, "IOI 2019"un fəxri sədri Hafız Paşayev hesab edir ki, olimpiadanın təşkilində əsas məqsədlərdən biri informatika sahəsində qabiliyyətli gəncləri tanıtmaq və kompüter elmlərinin vacibliyini gənclərə çatdırmaqdır. Onun sözlərinə görə, informatika üzrə beynəlxalq olimpiada kompüter elmləri və İT sənayesinin gələcək liderlərini bir araya gətirir.

IOI prezidenti Qreq Li beynəlxalq olimpiadanın açılış bəyannaməsini diqqətə çatdırıb, yarışmanın keçirilməsinin faydalarından söz açıb.

Tədbirin rəsmi qlobal sponsoru "Acer" şirkətinin Rusiya, Şərqi Avropa və Türkiyə üzrə vitse-prezidenti Qriqori Nizovski "Acer" və "IOI" əməkdaşlığından danışıb.

Açılış mərasimində 88 ölkə və regiondan olan "IOI 2019" nümayəndə heyətləri təqdim olunub. 1989-cu ildən bəri keçirilən bütün Beynəlxalq İnformatika Olimpiadalarının loqolarının əks olunduğu, IOI-nun rəsmi sponsoru "ACER"in fəaliyyətinə və Bakıya həsr edilmiş videoçarxlar nümayiş olunub.

### Beynəlxalq İnformatika Olimpiadası yüksək səviyyədə təşkil olunub

Qeyd edək ki, açılışı Bakı Konqres Mərkəzində gerçəkləşən 31-ci Beynəlxalq İnformatika Olimpiadasının yüksək səviyyədə təşkili üçün müasir tələblərə cavab verən məkanlar seçilib. Belə ki, əsas yarış Milli Gimnastika Arenasında baş tutub. Olimpiada çərçivəsində digər tədbirlərin keçirilməsi üçün "Boulevard Hotel" mehmanxanası seçilib. Yarış müddətində məktəblilər "Atletlər kəndi"ndə yerləşdirilib. Olimpiada iştirakçıları üçün əyləncə zonası, müxtəlif tədbirlər, maraqlı asudə proqram təşkil edilib ki, məktəblilər yarışdan kənar vaxtlarını səmərəli keçirsinlər. Məsələn, mədəni proqramın bir hissəsi kimi, Qobustan, Yanardağ, Atəşgah, Nobel qardaşlarının ev muzeyinə, Azərbaycan Milli Xalça Muzeyinə, Heydər Əliyev Mərkəzinə ekskursiyalar təşkil edilib. İştirakçılar, həmçinin "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunda olublar. Qoşa Qala küçəsindən başlayan gəzinti zamanı olimpiada iştirakçıları Qala divarları və tarix-memarlıq abidələri barədə məlumatlandırılıb. Qonaqlar "Qız qalası" və digər abidələrlə yaxından tanış olublar.






### Məktəblilər yarışdı

Nəhayət, həyəcanlı günlər. Həftənin iki günü, yəni avqustun 6-da və 8-də Milli Gimnastika Arenasında baş tutan yarışda 87 komanda bilik və intellekt nümayiş etdirib. 5 saat ərzində 3 sualı cavablandıran şagirdlər ümumilikdə 2 gün ərzində 10 saatda 6 tapşırıq yerinə yetiriblər. Yarışların nəticələri hələlik bəlli olmasa da, əvvəlcədən də gözlənildiyi kimi, Çin, Koreya, Rusiya, Kanada, ABŞ, İran məktəbliləri xüsusi fəallıq göstəriblər.

Yarışın yekun nəticələri bu gün - avqustun 9-da elan ediləcək.

Qeyd edək ki, ölkəmizdə keçirilən 31-ci Beynəlxalq İnformatika Olimpiadasına 88 ölkədən nümayəndə qatılsa da, 1 ölkə müşahidəçidir. Bakıda keçirilən olimpiadada Birləşmiş Ərəb Əmirliklərinin komandası yoxdur.

### 13-cü "IOI" konfransı

Avqustun 6-da 31-ci Beynəlxalq İnformatika Olimpiadası (IOI) çərçivəsində 13-cü "IOI" konfransı da keçirilib. 2007-ci ildən keçirilən "IOI" konfransı standart "IOI" proqramının bir hissəsidir.

Tədbirdə "Olympiads in İnformatics" jurnalının baş redaktoru Valentina Dagiene konfransın gündəliyini iştirakçıların diqqətinə çatdırıb. Qonaq, həmçinin Bakıda keçirilən olimpiadanın əhəmiyyətinə toxunub.

Jurnalın icraçı direktoru Mile Jovanov konfransın "Olympiads in İnformatics" jurnalı ilə əlaqəsindən danışıb. O vurğulayıb ki, jurnal Vilnüs Universitetinin Riyaziyyat və informatika fakültəsi və Beynəlxalq İnformatika Olimpiadasının təşəbbüsü ilə 2007-ci ildə təsis edilib. Olimpiada və digər müsabiqələr vasitəsilə informatika fənninin tədrisinin bütün sahələrində tədqiqatlara həsr olunan bu beynəlxalq jurnalın nəşri Beynəlxalq İnformatika Olimpiadasında keçirilən elmi konfransla sıx bağlıdır. Konfransda iştirakı nəzərdə tutulan müəlliflər məqalələrini bu jurnala təqdim edirlər. Jurnalın 2019-cu il nəşrində 50 ölkədən 200 müəllifin məqaləsi yer alıb.

Konfransda Azərbaycan və xaricdən olan nümayəndə heyəti kompüterlə bağlı mənbə rolunu oynayan rəqəmsal kitabxana, TLCS layihəsi, uşaqların proqramlaşdırma marafonu, kompüter elmləri, "K-12"də hesablama təfəkkürü - Azərbaycan təcrübəsi, ikinci dərəcəli alqoritmik alətlər, proqram təminatının hazırlanması mövzularında məruzələrlə çıxış ediblər.

Konfransın ikinci hissəsində müəllimlər üçün "İnformasiya və hesablama üsulları" mövzusunda seminar keçirilib.

### Olimpiadanın əhəmiyyəti

Bakıda ilk dəfə keçirilən bu olimpiada mühüm hadisə kimi qiymətləndirilir. Mütəxəssislər belə hesab edirlər ki, dünyada 5 fənn üzrə (fizika, riyaziyyat, kimya, biologiya, informatika) keçirilən olimpiadalar şagirdlərin formalaşmasında mühüm əhəmiyyətə malikdir. Xüsusən, informatika sahəsində ən nüfuzlu yarışlardan biri hesab olunan Beynəlxalq İnformatika Olimpiadası hər il dünyanın müxtəlif ölkələrindən məktəblilərə bilik və bacarıqlarını sübut etmək imkanı yaradır.

31-ci Beynəlxalq İnformatika Olimpiadası və tədbirin təşkili ilə bağlı yüksək rəylər var. Təhsil üzrə ekspert Etibar Əliyev olimpiadanı belə qiymətləndirir: "Bir neçə gündür məktəblilərin 31-ci Beynəlxalq İnformatika Olimpiadasını izləyirəm. Tədbir yüksək səviyyədə təşkil olunub. Mühüm hadisədir. Qaldı məktəblilərimizn nəticələrinə, asan deyil. 2011-ci ildən bu yarışdan medalımız yoxdur. Bəli, son illər bu olimpiada daha çətin olub. Həm də bu yarışmaya kompüter yarışması kimi baxmayın. Açılış günü mütəxəssisləri danışdırdım. Bəlli oldu ki, informatika olimpiadasında əsas bacarıq kimi proqram dillərini bilmək də bəs etmir, burada güclü riyazi alqoritm qurmaq bacarığı tələb olunur. İnsanın həll edə bilmədiyi riyazi məsələləri proqramla həll etməlisən. Üstəlik də, proqram sürətli işləməli və həcmi az olmalıdır, yəni optimallıq yüksək olmalıdır.

Yenə də məktəblilərimiz medal şansına çox yaxınlaşıblar. Statistikaya baxdım, ötən il Yaponiyada Abutalıb Namazov medalın ən yaxınlığında olub. Builki komandada Abutalıbın və Muradın nəticələri yüksəkdir. Şans hansınınsa, bəlkə ikisinin də üzünə gülə bilər. Yarışda bütün iştirakçıların yarısı medal alır. Çünki onlar seçilmiş, ələnərək gəlmiş dünya birinciləridir. Orada iştirak özü böyük uğurdur".

### Bir beynəlxalq tədbir daha...

Beləliklə, Bakı növbəti beynəlxalq tədbiri uğurla yekunlaşdırır. Dünyanın 88 ölkəsindən olan iştirakçıların qatıldığı yarışın bağlanış mərasimi Heydər Əliyev Mərkəzində baş tutacaq.

# Kimlər direktor olacaq?

## Namizədlərin test imtahanında göstərdiyi nəticələr və vakansiyaların sayı keçid balına təsir göstərəcək



⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

Qeyd edək ki, direktor vəzifəsinə işə qəbul üzrə müsabiqə də müəllimlərin işə qəbulu müsabiqəsi kimi, dörd mərhələdə həyata keçirilir. Direktorluğa namizədlər də elektron ərizələrin qəbulu, test imtahanı, müsahibə və vakant yerlərə yerləşdirilmə mərhələlərindən keçir.

Artıq iki mərhələ geridə qalıb. Test imtahanından keçən 1643 namizəd öz nəticələrini bilir. İmtahan zamanı namizədlərə əmək və təhsil qanunvericiliyi, idarəetmə, məntiq əhatə olunmaqla 60 test tapşırığı təqdim olunub.

Dövlət ümumi təhsil müəssisələrinin direktoru vəzifəsinə keçid balı namizədlərin test imtahanında göstərdiyi nəticələr və vakansiyaların sayı nəzərə alınmaqla müəyyən ediləcək.

### 472 yerdən birini seç

Beləliklə, 1643 namizədin iştirak etdiyi müsabiqəyə 472 vakant yer çıxarılıb. Bu il də vakant yerlərin böyük hissəsi regionların, xüsusilə də kənd məktəblərinin payına düşüb.

Namizədlər elektron ərizəsində 4 vakant yer seçsə də, müsahibədən sonrakı mərhələdə – yerləşdirmə zamanı onların şansı 4-dən çox olacaq. Belə ki, ötən ildən tətbiq edilən dəyişikliyə əsasən, namizədlərə müsabiqə dövründə yaranan vakant yerlər də təklif ediləcək.

Bu şansların heç biri reallaşmadığı təqdirdə isə müsabiqənin bütün mərhələlərini uğurla başa vuran, ancaq yekunda seçdiyi vakant yerlərə yerləşdirilməyənlər ehtiyat kadr siyahısına daxil olacaq. Test imtahanı mərhələsində əldə etdiyi nəticələri 2 il qüvvədə olan namizədə həmin müddət ərzində yeni yaranan vakant yerlər də təklif oluna bilər.

### Kimin hara yerləşdiriləcəyinə komissiya qərar verəcək

Müsahibə mərhələsində namizədlərin bilik və bacarıqları 5 ballıq şkala ilə qiymətləndirilir. Müsahibəyə dəvət olunanlar təhsil sənədi, ixtisas uyğunluğu, pedaqoji fəaliyyəti, təcrübəsi yoxlanıldıqdan sonra müsahibə komissiyasının qarşısına buraxılır. Burada onların idarəetmə bacarığı, ümumi dünyagörüşü, peşəkar kompetensiyaları və digər zəruri meyarlar üzrə qabiliyyətləri qiymətləndirilir. Həmin qiymətdən asılı olaraq, elə komissiya tərəfindən yerləşdirmə aparılır. Namizədin hansı vakant yerə yerləşdiriləcəyinə isə müsabiqə komissiyası qərar verir. Namizədin vakansiyaları qeyd edərkən izlədiyi ardıcıllıq nəzərə alınmır. Nümayiş etdirdiyi peşəkarlıq səviyyəsi, bilik və bacarığına əsasən onun hansı məktəbdə işləyə biləcəyinə komissiya qərar verir. Çünki məktəblər şəraiti, mühiti, şagird sayı, kollektivi baxımından müxtəlif olduğundan namizədin hansı məktəbdə işləyə biləcəyinə komissiyanın qərar verməsi daha ədalətli hesab edilir.

# Müəllimliyə namizədlər iş yeri seçir

## Keçid balı bu il də fənnə və yerə görə dəyişir

⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

### Bu ilin keçid balı müəyyənləşdi

2019-2020-ci tədris ili üçün Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu üzrə müvafiq keçid balı artıq müəyyənləşdirilib. Belə ki, musiqi, təsviri incəsənət fənləri üzrə həvəsləndirmə tədbirləri tətbiq olunan ümumi təhsil müəssisələrinə keçid balı 30, həvəsləndirmə tədbirləri tətbiq olunmayan ümumi təhsil müəssisələrinə keçid balı 42, fiziki tərbiyə fənni üzrə həvəsləndirmə tədbirləri tətbiq olunan ümumi təhsil müəssisələrinə keçid balı 36, həvəsləndirmə tədbirləri tətbiq olunmayan ümumi təhsil müəssisələrinə keçid balı isə 42 müəyyən edilib. Digər fənlər üzrə isə həvəsləndirmə tədbirləri tətbiq olunan ümumi təhsil müəssisələrinə keçid balı 36, həvəsləndirmə tədbirləri tətbiq olunmayan ümumi təhsil müəssisələrinə keçid balı 48 müəyyən olunub.

### 7 mindən artıq vakant yer

Müsabiqəyə Bakı şəhəri də daxil olmaqla, respublikada ümumi təhsil müəssisələri üzrə 7 mindən artıq vakant yer çıxarılıb.

Xatırladaq ki, Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu üzrə müsabiqəyə iyunun 24-də elektron sənəd qəbulu ilə start verilib. Müsabiqədə orta ixtisas və ali təhsil müəssisələrini pedaqoji ixtisaslar üzrə bitirmiş, dövlət nümunəli təhsil sənədi (diplom) almış və ya xarici ölkədə aldığı ali təhsil haqqında sənədi tanınmış ölkə vətəndaşları və ya Azərbaycanda daimi yaşamaq üçün icazə verilmiş şəxslər iştirak ediblər.

# "Azərbaycanımızı təmsil etməyim məsuliyyətimi artırırdı"

Sifai SƏFƏROVA

## *Səmayə Məmmədova:* "Uğurlarımın təməlində müəllimlərimin əməyi danılmazdır"

İstedadının sorağı ifa etdiyi bir-birindən gözəl mahnıların qanadlarında bizim qəzetə də gəlib çıxan Səmayə Məmmədova 2003-cü ildə Bakıda anadan olub. 6 yaşından paytaxtdakı 12 nömrəli musiqi məktəbində fortepiano şöbəsində Sveta Mövlazadədən dərs alıb. Hazırda isə istedadlı yeniyetmə Azərbaycan Milli Konservatoriyasının tərkibində İncəsənət Gimnaziyasının 10-cu sinfində oxuyur. Təəccüblü görünsə də Səmayə artıq müxtəlif musiqi alətlərində məharətlə ifa etməyi bacarır. Necə deyərlər, tarı, kamançanı, pianinonu, qarmonu onların öz dillərində dilləndirə və sevdirə bilir. Ancaq onun ən çox sevdiyi bir musiqi aləti də var ki, onun da adı fortepianodur. Nə az, nə çox, düz doqquz ildir ki, Səmayə öyrəndiyi bütün ecazkar mahnıları fortepianonun şirmayı dillərinin köməyi ilə öz yaddaşına köçürür və musiqi dünyasına qovuşdurur. Təhsil aldığı Gimnaziyada yeniyetmə fortepiano ifaçısı bu gün həvəslə musiqişünaslıq ixtisasına yiyələnir. Onunla dərsdən sonra elə təhsil ocağında görüşdük . Gəlişimin səbəbini bilməsə də, "Azərbaycan müəllimi" qəzetindən olduğumu biləndə sevinc hissi yaşadığını etiraf etdi. Söhbətimiz gözlədiyimdən də maraqlı keçdi. Doğrudan da əsl istidad sahibi ilə həmsöhbət olmaq necə də rahat olurmuş. Gənc istedad təhsil aldığı illərdə bir çox uğurlara imza atıb. Belə ki, o, dəfələrlə məktəbdə təşkil olunan hesabat konsertlərində, Azərbaycan Dövlət Filarmoniyasında keçirilən konsertlərdə istedad və bacarığını nümayiş etdirib.

### Beynəlxalq yarışlara qatılmaq uşaqlıq arzum idi

2017-ci ilin dekabr ayı idi. Direktorumuz Aytən Əhmədova məni otağına çağırıb, Polşada keçiriləcək "Vavel xəzinəsi" musiqi festivalında iştirak edəcəksən, - deyəndə, çox sevindim. Fərəhimin hədd-hüdudu yox idi. Valideynlərimə bu şad xəbəri çatdırmaq üçün evə necə getdiyimi bilmədim. 4 gün vaxtım vardı. Gecələr yatmır, dünya bəstəkarlarının - İ.S.Baxın, L.V.Bethovenin, V.A.Motsartın, V.Y.Haydnın əsərlərindən parçalar üzərində ciddi hazırlaşmağa başladım. Evdə ifalarımı atam, anam, bacım dinləyir, öz iradlarını bildirirdilər. Aiələmizin bütün üzvləri musiqi vurğunları olduqları üçün onların verdikləri qiymətlər də önəmli olurdu. Şübhəsiz, fortepianoda ifa etmək həm şərəflidir, həm də məsuliyyətli. Möhtəşəm konsert salonlarında özünü sınayırsan, hamının diqqəti sənin ifanda olur, tamaşaçıların rəğbətini qazanırsan. Mənim bütün uğurlarımın təməlində həm təhsil aldığım məktəbin, həm də müəllimlərimin əməyi danılmazdır. Onların üzərimdə çəkdikləri əməyin nəticəsi olaraq mən də müxtəlif vaxtlarda Moskvada, Ukraynada, Bolqarıstanda keçirilən beynəlxalq müsabiqələrə qatılaraq birincilik qazanıb, diploma və fəxri fərmanlara layiq görülmüşəm.

### Çox həyəcanlı idim

Nə isə... Atam aldığı bileti mənə göstərdi və tapşırdı ki, istirahət edim, çünki sabah tezdən yola düşməliyik. Əşyalarımı yığdıqca həyəcanım birə-beş artırdı. Sanki başım fırlanırdı... Nəhayət ki, atam, anam, bacım və qardaşım ailəvi Polşaya yola düşdük. Çox həyəcanlı idim. İfalarımın necə qarşılanacağı məni rahat olmağa qoymurdu. Bu, sözlə ifadə edilməsi mümkün olmayan hisslər idi. Artıq yersiz fikirlər məni yormuşdu. Ən çox isə xarici ölkədə Azərbaycanımızı təmsil etməyim məni həyəcanlandırır, məsuliyyətimi artırırdı.

### Nəticə sevindirici oldu

... Münsiflər heyəti məni səhnəyə dəvət edəndə özümü ələ aldım. Bir anlıq həyəcan məni tam tərk etdi. Qürur hissim elə məqamındaca qorxu hissimi üstələdi və səhnəyə cəsarətlə çıxdım. Ailə üzvlərimizin gözləri mənə dikilmişdi. Anam hamıdan çox həyəcanlı idi. Dünya bəstəkarlarının əsərlərini səsləndirdikcə, tamaşaçıların baxışlarında razılıq hisslərini oxuduqca sanki coşur, daha da cəsarətlənirdim. Anam, atam, qardaşım tez-tez durur və əl işarələri ilə "bravo", "bravo"- deyə qışqırırdılar. Nəticə də sevindirici oldu və mən Qran -pri mükafatına layiq görüldüm.

### "Əhsən, qızım, üçrəngli bayrağımızı göylərə qaldırdın"

Bu festivalda, dediyim kimi, ölkəmizi mən təmsil edirdim. Polyaklar, bolqarlar çox mehriban idilər. Onlara ünsiyyət qurduq. Gimnaziyamızda təhsil alan, çoxlu sayda beynəlxalq yarışlarda qalib olan istedadlı dostlarım barədə onlara məlumat verdim. Azərbaycandan apardığımız hədiyyələri onlara bağışladıq. Ayrılarkən çox məyus olmuşduq. Beynəlxalq yarışlara qatılmaq sevindirici olduğundan qat-qat artıq məsuliyyətlidir. Daha böyük uğurlara imza atacağıma həm müəllimlərimə, həm də valideynlərimə söz vermişəm. Anamın qəlbləri sırasında adımı eşidən vaxt gözlərindən axan yaşı heç vaxt unutmaram. Düzdür, bu sevinc göz yaşları idi, ancaq eyni zamanda, müqayisəolunmaz dərəcədə təsirləndirici idi. O, - əhsən, qızım, sən üçrəngli bayrağımızı göylərə qaldırdın! - deyərək qeyri-ixtiyari qışqırırdı.

### Tarixi abidələr haqqında məlumatlar topladıq

Polşanın Krakov şəhərində 3 gün qaldıq, orada park və xiyabanlarda olduq. Şəhərin mədəniyyəti ilə tanış olduq, incəsənət və tarixi abidələri haqqında məlumatlar topladıq. Qeyd edim ki, Krakov Polşanın elm, incəsənət və mədəniyyət mərkəzi, eləcə də bir çox tarixi hadisələrin şahidi olduğuna görə bu ölkənin qəlbi hesab olunur. Şəhər




öz gözəlliyi ilə turistləri də özünə cəlb edir. Dünyanın ən qədim ticarət mərkəzlərindən biri olan Cloht Hall burada yerləşir.

### Sinfimizdə 10 nəfər musiqi ilə məşğul olur

Sinfimizdə təhsil alan 29 şagirdin 10 nəfəri musiqi ilə məşğul olur. Bəzən dərsdən sonra biz yığışıb milli və dünya bəstəkarlarının əsərlərindən parçalar ifa edirik. Qonşu sinfin uşaqları da bizə qoşulurlar. Onlar üçün də ritmik mahnılar ifa edirik. Sinif rəhbərimiz İnarə Hümmətova ifa etdiyimiz mahnıları dinlədikcə bizimlə qürrələndiyini dilə gətirir. Deyir ki, mən sizinlə fəxr edirəm, çünki əvəzsiz istedad sahiblərisiniz.

### Bacım və qardaşım da gimnaziyada təhsil alırlar

Qeyd edim ki, bacım Samidə və qardaşım Mirxətai də bizim gimnaziyada oxuyurlar. Onlar da qeyri-adi istedad sahibləridir. Bacım da mənim kimi fortepiano ixtisası üzrə təhsil alır. O da beynəlxalq müsabiqələr qalibidir. Qardaşım isə klarnetdə ifa edir.

İlk baxışda asan görünən, əslində isə nəfəs alətləri içərisində ən çətini sayılan, xüsusi bacarıqla nəfəs ötürmələri, notlarla üfürülən havanın ahəngini düzgün müəyyənləşdirmək bacarığı tələb olunan bu alətin sirlərinə hər şagird asanlıqla yiyələnə bilmir. Mirxətai ilk gündən bu alətin öhdəsindən gəlib. O, həm bacarıqlıdır, həm də inadkardır. O, sübut edir ki, gərgin əmək sayəsində çətinlikləri dəf etməklə, klarnet ifaçılığı sahəsində də uğurlara imza atmaq olar.

### Onun 8 medalı var

Qardaşım eyni zamanda idmanın qılıncoynatma növü ilə məşğul olur. 8 qızıl medalı var. Bir çox ölkələrdə qılıncoynatma yarışlarına qatılaraq birincilik qazanıb. 2019-cu ildə Türkiyədə keçirilən qılıncoynatma yarışlarında iştirak edərək III yeri qazanıb və bürünc medalla mükafatlandırılıb. Gürcüstanda, Avropada uşaqlar arasında keçirilən qılıncoynatma yarışlarında həmişə qalib olaraq I yeri tutub.

*Nadir istedad sahiblərindən olan bu yeniyetmə qızın öz uğurları ilə bərabər ailəsinin başqa üzvlərinin-bacı və qardaşının da müxtəlif sahələrdə qazandıqları nailiyyətlər barədə ürəkdolusu danışığı ruhuma rəng qatır, sevinc hissimi coşdururdu. Çünki belə mötəbər yarışlarda qələbə sevincini bütöv bir xalq yaşayır - Azərbaycan xalqı!*

# Təhsilin sərhəddi olmamalıdır

## Şagirdlə müəllimin bərabər olduğu məktəb

⇦ Əvvəli səh.1

Rüstəm QARAXANLI

Tez-tez deyirmiş ki, əsas məqsədi şagirdlərinin dünyagörüşündə bir yeniliyə səbəb olmaq, onların həyata və dünyaya gözlərini açmaqdır. İntellektuallara deyil, ziyalılara dərs demək istəyirmiş. Çünki məhz ziyalı digərləri üçün nə isə etməyə çalışır. Milqram ziyalı təbəqəsinin yetişdirilməsini özünün missiyasının başlıca bəndi sayırmış.

Bəs onun direktoru olduğu məktəbin əsas fəaliyyət prinsipləri nələr olub? Şagirdlərinin sözlərinə görə, məktəbdə qamçı ilə çörək bir-birini harmonik şəkildə tamamlayırmışlar. Direktor şagirdləri ilə sərt olub, ancaq ədaləti heç vaxt unutmadığından ondan incimirmişlər. “Milqram bizə qorxmamağı və öz hərəkətinə cavab verə bilməyi öyrədirdi. Sinfimizdə belə bir hal olmuşdu: Petya pioner qalstukuna xətkeşlə dəstək düzəldib altından çalışmanı köçürürdü. Bunu görən müəllim onu direktorun yanına apardı. Milqram Petyanı sərt danladı, sonra müəllimi dərsə yola saldı. Qayıdıb öz qalstukunu çıxarıb Petyaya bağışladı. Etdiyi “kəşf”ə görə. Belə incə yanaşma hər şeyin ağ-qara olduğu sovet dönəmi üçün çox nadir hal idi”, - deyə 1988-ci ilin məzunu Yekaterina Evdokimova danışır.

Milqramın məktəbinin bünövrəsi iki mühüm sütun üzərində bərqərar olmuşdu: şagirdlərlə münasibətdə etimad və nüfuz. “O, çox sərt, ancaq nüfuzlu idi. Mən onun fikirlərinə, tənbehinə çox böyük önəm verirdim. Hansısa səhv hərəkətimi tutsaydı, çox utanardım” - deyə Yekaterina davam edir. Yekaterina da daxil olmaqla heç bir şagird hər səhər saat 7:30-da direktorun onları məktəbin qarşısında gözlədiyini unutmayıblar. Hər səhər şagirdlər mütləq onunla salamlaşmalı, onun zarafat və tənbehlərini dinləməli idilər. Deyilənə görə, saçlarını vaxtında kəsdirməyən oğlanlara qarşı xüsusilə “amansız”mış. Özü keçəl olduğundan saçı uzun oğlanları saxlayıb deyirmiş: “Sən qəsdlə belə edirsən ki, mənim paxıllığım tutsun?”. Sonra həmin şagirdə 15 qəpik verib bərbərə göndərirmiş.

### Direktorun maketi

Natalya Romanova xatırlayır: “Bir dəfə dərsə gəlirik, bir də gördük ki, sütunların birinin arxasından direktor Milqram bizə tərəf boylanır. Biz dərhal qaçdıq. Sən demə bu, onun özü deyil, maketi imiş. Heç vaxt tuta bilmirdik, bizi izləyən direktorun əslidir, ya surəti. Ona görə də dərsə vaxtında və hazır gəlmək lazım idi. Milqramın özü belə idi. Getdiyin yerdə bir də gördün səni möhkəm əlləri ilə saxladı: “Bəs salamlaşmaq?!”.

45 nömrəli məktəbin bütün məzunları təhsil ocağındakı yaradıcı mühitdən danışırlar. 20 il tərbiyəvi işlər üzrə direktor müavini işləmiş Yelena Podqornaya xatırlayır ki, bir dəfə Milqram Arbatda gənc rəssam oğlanla tanış olur və onu məktəbə gətirir. Göstəriş verir ki, bütün müəllimlərin, o cümlədən onun özünün şarjını çəksin. Bir neçə gündən sonra şarjlar məktəb divarlarını bəzəyir. “Yuxarı”lardan gələnlər hər dəfə şarjları gördükdə təəccüb içində qalırmışlar.

Milqramın kabinetinin qapıları şagirdlər üçün hər zaman açıq olub. Dəxli yoxdur, qəbulunda kim olur-olsun - müəllim, qonaq, hansısa tanınmış şəxs, - şagird gəldisə, direktorun diqqəti ona yönəlirmiş. “Sizin üçün mən məşğul ola bilərəm. Şagirdlər üçün isə hər zaman azadam” - deməyi sevirmiş. Milqram şagirdləri mütəmadi olaraq kabinetinə dəvət edər, yenilikləri müzakirəyə çıxarar və onların fikirlərini öyrənməyi sevərmiş. Şagirdlərin sözlərinə görə, heç kim sadəlöhv, ağılsız görünməkdən qorxmazmış, bilirmişlər ki, onları sonadək dinləyəcəklər. “Milqram bizdə qarşındakını dinləmək mədəniyyəti tərbiyə etmişdi. Bu münasibəti mən sonralar heç bir yerdə görmədim” - deyə 1966-cı ilin məzunu Viktor Doroxin xatırlayır. Az qala yarım əsr sonranın məzunu, məktəbi 2002-ci ildə bitirmiş Lev Borovkov da eyni qənaətdədir: “Biz həmişə özümüzə qarşı bərabərlik və hörmət hiss edirdik. Bu, imkan verirdi ki, bizə hörmət edənə biz də hörmət edək. Belə bir halın şahidi olmuşam: akt zalında hansısa məsələ müzakirə olunurdu, həmyaşıdlarımdan biri ayağa qalxıb direktorla mübahisə etdi. Milqram da tam bərabər şəkildə öz mövqeyini əsaslandırmağa çalışırdı. Axırda ortaq məxrəcə gəldilər”.

**Milqramdan soruşanda ki, onun metodu nədən ibarətdir, belə bir cavab verirmiş: müəllim seçimində! O hesab edirdi ki, məktəbdə dərsi yalnız istedadlı adamlar deyə bilər. Milqram bu və ya digər səbəbdən iş yerini itirmiş istedadlı müəllimləri işə götürməkdən çəkinməzmiş. Deyirmiş ki, müəllim məndən savadlı olsa belə, yanımda işləməlidir: “Əsas odur müəllim missiyasının daşıyıcısı olsun”.**



Milqramdan soruşanda ki, onun metodu nədən ibarətdir, belə bir cavab verirmiş: müəllim seçimində! O hesab edirdi ki, məktəbdə dərsi yalnız istedadlı adamlar deyə bilər. Milqram bu və ya digər səbəbdən iş yerini itirmiş istedadlı müəllimləri işə götürməkdən çəkinməzmiş. Deyirmiş ki, müəllim məndən savadlı olsa belə, yanımda işləməlidir: “Əsas odur müəllim missiyasının daşıyıcısı olsun”.

### Sərhədsiz təhsil

45 nömrəli məktəb uşaqları tək mühiti ilə cəlb etmirmiş. L.Milqramın ideyalarla dolu, təşəbbüskar, maraqlı insan olması valideynlərlə yanaşı, məktəblilərin də ürəyincə idi. İttifaqın, hətta bir sıra xarici ölkələrin tanınmış yazıçıları, incəsənət, mədəniyyət və hətta siyasət adamları məktəbin qonağı olurmuşlar. Milqram sübut etməyə çalışırdı ki, təhsilin heç bir sərhəddi olmamalıdır, uşaq azad oxumalıdır. 45 nömrəlidə güclü ingilis dili dərsləri olub. O vaxtın reallıqları üçün bu, bəlkə də qeyri-adi görünə bilər, ancaq Milqramın məktəbində ingilis dili dərslərində uşaqlar Selinceri oxuyur, “ABBA”nın mahnılarının sözlərini tərcümə edirdilər. ABŞ-a gediş-gəlişin qadağan olunduğu dövrdə 45 nömrəli məktəbin şagirdlərinin okeanın o tayına səfəri təşkil olunmuşdu. Özü də bu səfərin çox maraqlı tarixçəsi var. Moskvadakı Amerika səfirliyinin əməkdaşlarının uşaqları 45 nömrəli məktəbdə təhsil alırmışlar. Səfir o vaxtkı prezident Ronald Reyqana təklif edir ki, belə bir səfər təşəbbüsü ilə çıxış etsin. Reyqan razılaşır. Nəticədə 45 nömrəli məktəb düz 14 il Vaşinqtondakı “Bethesda Chevy Chase” dövlət məktəbi ilə əməkdaşlıq edir.

45 nömrəli novator təhsil ocağı kimi Rusiyadan Beynəlxalq Bakalavriata qəbul edilmiş ilk məktəb olaraq tarixə də düşüb. Podqornaya deyir: “10-cu siniflərdə 72 şagirdimiz, 72 tədris proqramımız var idi. Uşaqlar qrup halında nə ilə maraqlanırdılarsa, onu öyrənirdilər”.

Milqram adına 45 nömrəli məktəbin direktoru olmuş Mixail Şneyder birgə işlədikləri günləri belə xatırlayır: “Mən təyin olunanda məktəb akademik nöqteyi-nəzərdən ən yaxşılardan idi. 1993-cü ildə hər məktəbdə kompüter yox idi, ancaq 45 nömrəlidə informasiya texnologiyalarının öyrənilməsi ilə bağlı proqramlar mövcud idi. Uşaqlarla müəllimlər arasındakı səmimi münasibətlər dərhal nəzərə çarpırdı. Müəllimlər hər bir uşaqda şəxsiyyət görməyə çalışırdılar. Milqram heç vaxt humanizm prinsiplərindən bir addım belə geri atmazdı. Axı baza dəyərləri olmayan texnologiya bəşəriyyət üçün təhlükədir!”.

Milqram əsl direktor kimi ən xırda detalları belə diqqətsiz qoymazdı. Şagirdlərini tək-tək tanıyardı. Hətta təqaüdə çıxandan sonra belə şagirdlərini evində qəbul edib onlara zarafatla attestat verərmiş...



# Ağ-boz geyimli DOST...

Jalə MÜTƏLLİMOVA

İstənilən işi başlayanda onun bir neçə istiqamətlərini araşdırmaq lazım gəlir.

Birincisi, işin məramı, məqsədi nədir?

İkincisi, bu işi kadr baxımdan icra etməyə hazır nə qədər hazırlıqlı gənc var? Yoxdursa, onları üzə çıxarmaq üçün əldə hansı imkanlar mövcuddur?

Üçüncüsü, hədəf və məqsəd nədir?

Dördüncüsü, nəticələr almaq mümkün olacaqmı?

Sonuncu sualı adətən narahatlıqdan, daha dəqiq tələbkarlıq və məsuliyyətdən veririk özümüzə. Çünki hər başlanğıcdan yaxşı, mükəmməl nəticə ummağa alışıqdır insan beyni.

Əslində haqqında danışacağımız işin sonu, yəni yaxşı nəticəsi artıq var. Yəqin razılaşarsınız ki, nəticəsi yaxşı olmayan işi, iş görmək xatirinə, kimsə davamlı etmək arzusunda olmaz. Yox, davam etdirilsə demək, lazımdır, vacibdir, davamlılığı arzuediləndir. Təhsil Nazirliyinin və “ASAN Xidmət”in birgə pilot layihəsi olan “Məktəblinin dostu”nu deyirəm. Artıq bir neçə ildir davam etdirilir. Lazımlıdır, maraqlıdır, vacibdir və arzuediləndir.

İlk başda ağ-boz geyimli, gülərüz, şən gənclərin gerçəkdən dost olub-olmayacaqları ətrafında xeyli fərqli düşüncələr mövcud idi. İnsanlar düşünürdü, görəsən bu gənclər işə yarayacaq və onlara ümidvar olanları yarıdacaqmı? Nə qədər ictimai faydalı ola biləcəklər?

...Və ALINDI!.. Həm də hər kəs tərəfindən qəbul edildi. Həm məktəb, həm məktəbli, həm də valideynlər bəyəndi bu DOSTları.

Onların məktəblərdə var olması çox şeyə dəstək oldu. Şagird-müəllim, valideyn-müəllim, valideyn-məktəb münasibətlərində bir DOST çıxdı ortaya. Lazım gələndə şagirdi də, müəllimi də, valideyni də dəstəkləyəcək gənc DOST. Onlar ehtiyac yarananda, mənəvi, psixoloji dəstək verməyi də bacarırlar. Təşkilatçıdırlar. Məktəbdə baş verə biləcək xoşagəlməzliklərin qarşısını almaq üçün hazırlıqlıdırlar. Ən vacibi, milli ruhu qoruyaraq, dünyəvi və gənc olmağı bacarırlar. Bu layihə Təhsil Nazirliyinin “ASAN Xitmət”lə birgə reallaşdırdığı ən uğurlu işlərdəndir.

***

Artıq yeni mərhələdə “Məktəblinin dostu” layihəsinə işə qəbul, müsahibə mərhələsi keçirilib.

Təhsil Nazirliyi ilə “ASAN xidmət”in birgə həyata keçirdiyi “Məktəblinin dostu” pilot layihəsi üzrə üç saylı “ASAN Xidmət” mərkəzində başlanan imtahanlardan keçənlər avqustun 5-dən təlimlərə cəlb olunacaq. Təlimlərin sonunda qiymətləndirmənin nəticələrinə əsasən seçilmiş namizədlər “Məktəblinin dostu” olacaq.

Yeri gəlmişkən, müsahibə mərhələsini millət vəkilləri, junalistlər, psixoloqlar, “ASAN Xidmət”in insan resursları və təlim şöbəsinin mütəxəssisləri, məktəb direktorları müşahidə edib. Müsahibə mərhələsində ictimai fəallığı ilə seçilən, könüllü kimi müxtəlif proqramlarda çalışan, xarici dil biliklərinə malik namizədlərə üstünlük veriləcək.

Maraqlıdır ki, imtahanlarda iştirak etmək üçün yeddi yüzdən çox gənc müraciət edib. Onlardan dörd yüzdən çoxu test mərhələsində uğur qazanıb. İmtahanların test mərhələsində namizədlərə ümumi və psixoloji əhəmiyyəti olan əlli sual təqdim edilib. Onların Azərbaycan tarixi, coğrafiyası, mədəniyyəti, məntiqi düşünmə qabiliyyəti sahələri üzrə bilikləri yoxlanılıb. Seçilmiş namizədlər müsahibə mərhələsində iştirak hüququ qazanıblar.

Məlumat üçün onu da qeyd eləmək lazımdır ki, “Məktəblinin dostu” pilot layihəsi hazırda otuz beş məktəbdə fəaliyyət göstərir və yeni tədris ilindən etibarən layihənin əhatə etdiyi məktəblərin sayının yüzdən çox olması nəzərdə tutulur.

Yəni, bu il yüzdən çox məktəbə uşaqlar ikiqat ürəkli gedər. Valideynlər, müəllimlər də bir o qədət rahat, arxayın işləyə biləcəklər. Çünki “Məktəblinin dostu” layihəsinin mahiyyəti məhz bundan ibarətdir. İşlərin daha rahat, daha yüngül görülməsinə dəstək vermək, DOST olmaq...

Məktəbin də, məktəblinin də dostu olan ictimaiyyətçi, müasir və ən başlıcası gənc kadrlara, məktəbə, şagirdə, valideynə, lap elə müəlimlərin özünə də lazım olan bu maraqlı köməkçilərə uğurlu tədris ili diləyək.

# Biləsuvarda yeni məktəb binası inşa olunur

Şakir CƏFƏROV

Biləsuvarda Nizami Gəncəvi adına şəhər 1 nömrəli tam orta məktəb üçün yeni bina inşa olunur. Tikinti işləri Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən həyata keçirilir.

Məktəbin direktoru Xanımgül Abıyeva bildirib ki, 1176 şagird yerlik 4 mərtəbəli tədris müəssisəsi 5 korpusdan ibarətdir. Məktəbin 54 sinif otağı, 500 nəfərlik akt zalı, laboratoriyalar, kitabxana, hərbi hazırlıq kabineti, informatika və hesablama texnikası kabineti, 218 yerlik yeməkxanası var. Tikinti işləri başa çatdırıldıqdan sonra məktəb ərazisində geniş yaşıllıq sahəsi salınacaq.

Artıq binada son tamamlama işləri görülür. Hazırda binanın daxilində suvaq işləri aparılır, döşəmə vurulur, elektrik xətləri çəkilir, qapılar quraşdırılır.

Məktəb binası yeni tədris ilində müəllim və şagird kollektivinin istifadəsinə veriləcək.

Biləsuvarlılar dövlət başçısı İlham Əliyevə bu diqqət və qayğıya görə minnətdarlıqlarını bildirirlər.

Təhsildə STEM

# YENİ dünyaya müəllimlər

## STEM təhsil gələcəyimizi müəyyən edir




Oruc MUSTAFAYEV

Kim hesab edir ki, dəqiq elmlər, eləcə də riyaziyyat və ya fizika müəllimləri dünyada ən ciddi və cansıxıcı müəllimlərdir, bir az hər hansı cansıxıcılığı və darıxdırıcılığı rədd edən STEM-təhsilin müasir konsepsiyası ilə tanış olsalar yaxşıdır. Əgər STEM abbreviaturasının "sirrini" açmalı olsaq, ingilis dilində S- science, T- technology, E- engineering, M- mathematics mənalarını alarıq. Azərbaycan dilində isə S- elmlər, T - texnologiya, E- mühəndislik, M - riyaziyyat deməkdir. Bir sözlə, bunlar müasir dünyada ən çox tələb olunan fənlərdir. Beləliklə də bu gün STEM təhsilin inkişafı dünya təhsilində əsas trendlərdən biridir.

Texnologiyaların çox sürətli təkamülü ona aparır ki, proqramçılar, IT mütəxəssisləri, mühəndislər, yüksək texnologiyalar sahəsinin peşəkarları və s. planetdə tezliklə ən çox tələb olunan mütəxəssislər olacaqlar. Qarşıda isə belə bir sual durur? Bu cür mütəxəssisləri necə hazırlamaq olar? Artıq yazı lövhəsində "Sinif işi", altında da, məsələn, "Kəsrlər" kimi köhnə tədris metodları aktuallığını itirirlər. Bu cür klassik yanaşma uşaqlarda dəqiq və təbiət elmlərinə maraq oyatmaq əvəzinə onları dərsdən uzaqlaşdırır.

### Əsas məqsəd uşaqlara mükəmməl STEM təhsili verməkdir

2011-ci ildə ABŞ prezidenti Barak Obama növbəti onillik ərzində ölkə məktəbləri üçün 100 min STEM müəlliminin hazırlanmasına dair çağırış edib. Elə həmin ildə bu təcili çağırışa cavab vermək, bu sahədə nəticəyönümlü işləri sürətləndirmək və əlaqələndirmək, ölkəni gücləndirmək üçün STEM təşəbbüslərini dəstəkləyən "100Kin10" qrupu yaradılıb. "100Kin10" ABŞ-ın milli maraqlarına cavab verən, ölkənin ən vacib problemlərindən birinin həllinə yönəlmiş milli şəbəkədir, əsas məqsəd uşaqlara mükəmməl STEM təhsili verməkdir. STEM komandasının yuxarıda qoyduğumuz suala cavabı hazırdır - qlobal hədəf müasir STEM təhsilin simasını dəyişməkdir. Bunun üçün layihənin müəllifləri 2021-ci ilə qədər STEM təhsil sahəsində 100 min yeni müəllim öyrətməyi planlaşdırırlar. "Yenilər" dedikdə isə, daha ağıllı, müasir, yaradıcı, fənnə yeni üslubda yanaşma qabiliyyətinə malik və şagirdlərdə də eyni qeyri-standart baxışı formalaşdıra bilən müəllimlər nəzərdə tutulur. Bu gün ABŞ-da onlarla universitet, təhsili inkişaf etdirmə mərkəzləri, muzey və digər təşkilatlar ölkənin ən böyük STEM şəbəkəsi olan "100Kin10" komandasının təşəbbüsünü dəstəkləyir.

Öz hədəflərinə çatmaq üçün "100Kin10" müəllifləri bu yaxınlarda Blow Minds informasiya resursunu buraxıblar. Bu resursdan yararlanmaqla pedaqoji kolleclərin tələbələri və bütün arzu edənlər STEM-in müasir konsepsiyası ilə tanış ola, kurslara yazıla və ya şəkillərə, videoya baxa bilərlər.

Beləliklə də hər kəs üçün açıq olan STEM resurslarla tanışlıqdan sonra aydın olur: gələcəyimizi texnologiyalar müəyyən edəcək, texnologiyaların gələcəyi isə yeni format müəllimlərin əlindədir. Yeni müəllimlər hər hansı köhnə tədris üsullarını, formal yanaşmanı qəbul etmir və öz bilikləri ilə şagirdlərin "beynini partlada", sonsuza qədər onların dünyagörüşünü genişləndirə bilərlər. Nəticə bundan ibarətdir ki, təlim təkcə biliklərin müəllimdən şagirdlərə ötürülməsi deyil, eyni zamanda şüurun genişlənməsi və reallığı dəyişdirmə üsuludur.

### İlk dörd il ərzində 30000-dən çox STEM müəllimləri hazırlanıb

Əgər əvvəllər sivilizasiyaların həyatı və reallıq bir çox şeydə mədəniyyət və sənətdən asılı idisə, bu gün həyatımız müxtəlif texnologiyaların ətrafında fırlanır, buna görə təəccüblü deyil ki, reallıqları bu texnologiyaları hazırlayanlar yaradır.

Görünür, müasir STEM təhsildə kreativ istiqamətin inkişafı təsadüfi deyildir. Çünki yalnız elmə əsaslanan gələcək, çətin ki, kimisə sevindirəcək. Amma elmin və sənətin sintezini təcəssüm etdirən gələcək indi bizi daha çox narahat edir. Bu səbəbdən də artıq bu gün yaxınlaşan gələcəyin ən yaxşı nümayəndələrini tərbiyə etmək barədə düşünmək lazımdır.

İqlim dəyişikliyi, ərzaq çatışmazlığı və ya iqtisadi bərabərsizlik olsun, dünyanın demək olar ki, bütün ən mühüm problemləri STEM əsasında həllər tələb edir. Amma insanların yalnız kiçik bir hissəsinin adıçəkilən problemləri masa arxasında əyləşərək həll etməyə imkan verən əsas bilikləri var. Ona görə də təəccüblü deyil ki, biz hələ bu problemi həll edə bilməmişik.

Onların öhdəsindən gəlmək üçün gələcəyin problemləri ilə məşğul olanlar STEM bacarıqlarına malik olmalı və onlarda məsələləri həll etmə ruhu üstünlük təşkil etməlidir. Gələcək problemləri həll edənlərin isə onları istiqamətləndirmək üçün bu gün əla STEM müəllimlərinə ehtiyacı var. "100Kin10" artıq ilk dörd il ərzində 30.000-dən çox yeni, əla STEM müəllimlərini hazırlayıb, bacarıqlarını artırmaq üçün on minlərlə müəllim də onlara dəstək verməkdədir. Bununla yanaşı, komanda on dəfə böyüyüb, onlarla birgə layihəni stimullaşdırıb, yenilikçi sponsorların əməkdaşlığı ilə STEM-in inkişafı üçün 90 milyon dollar vəsait toplanıb.

### Müəllim çatışmazlığı artır

Müəllim, xüsusən də STEM mütəxəssislərinin çatışmazlığı bütün ölkə üzrə artan problemdir. ABŞ-da Atlantadan tutmuş Koloradonun kənd rayonlarına qədər məktəb və rayonlar yüksək keyfiyyətli müəllimləri, xüsusən də STEM müəllimlərinin cəlb olunması və işdə saxlanması üçün mübarizə aparırlar. Bəzi ştatlar əldə etdikləri fövqəladə səlahiyyətlər çərçivəsində müəllim çatışmazlığı problemini həll etməyə çalışır. Lakin onların səyləri məktəbə kifayət qədər qeyri-peşəkar müəllimlərin gəlişinə yol açır ki, bu da narahatlıq doğurmaya bilməz.

"100Kin10" qrupu üzrə tərəfdaşlar bu məsələdə innovativ qərarlar hazırlayaraq fövqəladə səlahiyyətlərin çərçivəsindən kənara çıxırlar. 2018-ci ildə "Math + Science" Milli təşəbbüsü layihə qrupuna başçılıq edib. Bu qrup STEM mütəxəssislərinin çatışmadığı konkret sahələrdə müəllimlərin strateji hazırlığı üçün problemləri və ən yaxşı təcrübələri öyrənib. Layihə komandası müəllimlərə hazırlıq proqramlarında kömək etmək və məktəb dairələri onların əməkdaşlığının gücünü qiymətləndirmək və ehtiyaclarla bağlı problemləri həll etmək üçün dinamik və fərdi aləti hazırlayıb. 2019-cu ildə Fort Xeys Dövlət Universiteti diplomlu müəllimləri dəstəkləmək, sertifikatlaşdırmaya keçidi təmin etmək üçün layihə qrupuna başçılıq edib.

### İnkişaf üçün STEM

STEM terminin tərifi qızğın mübahisə mövzusudur, bu, bəzən STEM cəmiyyətində fikir ayrılıqlarına gətirir. Çox vaxt riyaziyyatı STEM imkanlarından çıxarırlar. Silikon vadisində müəllimlər bu problemin ətraflı izahını veriblər. Qeyd olunub ki, regionun texnologiyalara marağı riyaziyyata marağın və onun nüfuzunun azalmasına gətirib çıxarıb. Riyaziyyat müəllimləri də narahatlıqla bildiriblər ki, onlar da STEM cəmiyyətindən özlərini təcrid olunmuş hiss edirlər. Lakin tərəfdaşların çoxunun riyaziyyata STEM təliminin ayrılmaz hissəsi kimi yanaşması komandanı ruhlandırır. Ancaq "Illustrative Math" və "PhET Interactive Simulation" kimi tərəfdaşlar mürəkkəb məsələlərin həllində riyazi konsepsiyanın tətbiqini fəal surətdə dəstəkləyirlər.

### İnsan kapitalının inkişafı üçün erkən STEM

Son illərdə STEM təhsilin erkən təsirinin yalnız orta məktəbdə və kollecdə deyil, həm də daha geniş mənada bütün həyat boyunca insanların uğurlu olmasını təmin etməsinə dair çoxsaylı sübutlar ortaya atılır. Təbiət elmləri və riyaziyyat sahəsində erkən təhsil yetkin yaşda insanın ictimai-iqtisadi statusunu qabaqcadan müəyyən edir. 2018-ci ildə təşəbbüslərin geniş spektrinə cavab verən daha çox pedaqoq və ekspert erkən STEM-i dəstəkləyiblər. Boston Elm Muzeyi və Nyu-Hemşir Universiteti kimi, tərəfdaşlar elementar STEM müəllimlərinə yönəlik yeni proqramları hazırlayıb. Həmçinin, bu mövzu üzrə partnyorların əməkdaşlığı qeyd edilə bilər. Dövlət təhsil və biznes koalisiyasının birgə səyləri ilə layihə qrupu ibtidai sinif müəllimlərinin rəqəmsal savada və informatika üzrə hazırlığına yönəlib. Heising-Simons Fondu aşağı gəlirli ailələrdən olan şagirdlərin riyazi proqramlarını maliyyələşdirir. Nyu-York Elm Zalı öz Yaradıcılıq Hesablama Akademiyasını yaradaraq immiqrant ailələrdən olan 3-4-cü sinif şagirdlərinə hesablama düşüncəsinin inkişafına dəstək göstərməyə başladı.

### Gələcəyin mühəndislərini STEM yetişdirir

Heç kimə sirr deyil ki, STEM təhsil həm kollec, həm də orta məktəb məzunlarına böyük ehtimalla daha yüksək maaş verəcək. Çünki təhsil haqqı kollecdə sürətlə artmaqda davam edir, gələcək iş yeri ilə bağlı qeyri-müəyyənlik artır, STEM-də iş yerlərinə isə tələbələr üçün daha ağıllı karyera kimi baxılır. Nəticədə təlim STEM-in praktik tərəfi ilə daha sıx bağlı olur. Cari ilin aprelində Vaşinqtonda dövlət, özəl və qeyri-kommersiya sektorlarının rəhbərləri toplaşaraq "STEM -həlli: Sabahın işçi qüvvəsi" mövzusu çərçivəsində daha güclü STEM işçi qüvvəsi məsələsini müzakirə ediblər.

STEM təhsil və işçi qüvvəsi arasında alyans güclüdür. Lakin STEM-lə dərin və əsl təlimin dəyərləri sadəcə işçi qüvvəsi konveyerin yaradılmasından daha əhəmiyyətlidir. Bu, tədqiqatlar üçün maraq və imkanları yaradır, eksperiment aparmaq, əməkdaşlıq etmək, uğursuzluğa tab gətirmək, özümüzü, təbiəti və süni yaşayış mühitini daha yaxşı anlamaq, problemlərin yaradıcı həlli və hər növ tənqidi düşüncəni təcrübədən keçirmək, hansı ki, bunlar həyatın bütün sahələrində faydalı olacaq. Buna görə də Kaliforniya Universiteti, Karnequ Elm Mərkəzi və Bay Area Açıq Muzeyi kimi sadiq tərəfdaşlarının STEM təlimə məhəbbət oyatmaq, gənc tələbələrə praktiki təcrübə vermək üçün mobil mühəndis laboratoriyası və makerspaces tətbiq etməsinə sevinirik. Biz həm də sinifdə sevinc hissinin yaradılması üçün erkən əlamətini görürük.



### Sevinc lövbəri, biliyə həvəs və eksperimentlər

Son illər məktəbəqədər təhsildən başlamış təhsilin bütün pillələrində tədris akademik və test sınaqlara hədəflənib ki, bunun da tez-tez mənfi nəticələri baş verir. Bu yaxınlarda ABŞ-da yenidən sinif otaqlarında sevinc və eksperimentlər ətrafında yaranan hərəkatın ən erkən əlamətləri görünməyə başlandı. Müəllimlər qeyd edirlər ki, STEM təhsilin ən maraqlı hissəsi açıq havada baş verir, çünki o, uşaqların təbii marağını oyadır və stimullaşdırır. Nyu-York Botanika bağı və San-Dieqo Zoparkı kimi tərəfdaşlar STEM təhsili üzrə tədris planları, alətlər hazırlayıblar ki, onlar bütün təhsilalanların ən sadə bitki növlərindən tutmuş fillərə qədər marağını cəlb edir. 2018-ci ildə CU Boulder, DSST kimi dövlət məktəbləri və NSTA / NCTM STEM proqramı üzrə müəllimlərdən ibarət layihə qrupu tərəfindən təhsilverənlər üçün davamiyyətə əsaslanan təbiət elmləri üzrə qiymətləndirmə hazırlanıb. Proqram siniflərdə müəllimlərə daha çox təcrübə aparmağa və layihə işləməyə imkan verir. Nyu-York şəhərinin Təhsil Departamenti şagirdlərin elmə inteqrasiyasına nail olmaq məqsədilə orta məktəblərin sinif otaqlarından müəllimlərin daha geniş istifadəsi üçün imkan yaradır. Və beləliklə də daha çox STEM müəlliminə dəstək olur. Müəllimlər deyirlər ki, təhsilə maraq, sevinc gətirmək üçün STEM təhsilin yeni istifadə üsullarını tapmağa çox sevinirlər. Onlar müəllimləri yaddaşa təhrik edən hesabatlılıq sistemindən yaradıcı inkişafa kömək edən, doğru olan təlimə keçidi dəstəkləyirlər.

### STEM sosial-emosional tədris kimi

Linkedın və Dünya İqtisadi Forumun liderləri bir fikirdə birləşir: tələbələr yumşaq bacarıqlara və sosial-yönümlü-emosional vərdişlərə malik olmalıdırlar ki, 21-ci əsrdə komandanın lideri və üzvlərindən olsunlar. Məşhur təhsil nəşrləri də müəllimlərin sosialyönümlü-emosional tədrisə və beyin elmlərinə diqqət yetirmələri zəruriliyini xüsusi müzakirə etməklə öz şagirdlərində akademik bilikləri tamamlayan sosial vərdişlərin daha yaxşı dəstəklənməsinə diqqət yetirirlər. Belə sponsorlardan olan Çan Zukerberqin təşəbbüsləri bütün uşaqların təhsilə cəlb olunması yanaşmalarını əhatə edir və 21-ci əsrdə yaşamaq üçün ən zəruri olan təfəkkürün inkişafını stimullaşdıran, inadkarlıq və yumşaq vərdişlər aşılayan, komanda işini, nəticəyönümlü inkişafı təmin edən STEM təhsilə marağı artırır.

STEM-in yalnız vərdişlərlə bağlı olmasına dair miflər getdikcə sönür. Məsələn, Ostindəki Texas Universitetinin A.Çarlz Mərkəzi "Agile Mind" qrupu ilə əməkdaşlıq edir. Məqsəd uşaqlara karyerada inkişaf dərsləri verməkdir. Diqqət müəllimlərin STEM təhsilində yer alıb-ala bilməyəcəyinə dair fikirlərinə yönəldilib. STEM-dən daha geniş metakoqnitiv və ictimai cəhətdən emosional bacarıqların gücləndirilməsi üçün istifadə olunacaq, məqsəd daha çox şagirdin həyatın müxtəlif sahələrində uğurlu olmasını təmin etməkdir.

### Şəxsi firavanlığa aparan yol

Son onillikdə biz rəqəmsal alətlərlə və "Ed tech" şirkətlərinin platformaları ilə inkişaf etdirilən fərdiləşdirilmiş təlimə artan tendensiyanı müşahidə edirik. Bununla belə, müəyyən tənqidi rəylərə əsasən, bu cür texniki həllər nəinki bütün tələbələrə çatmır, həm də müəllimlərin tələbələrlə ünsiyyətini məhdudlaşdırır, bu, xüsusilə də aztəminatlı və ya təmsilçiliyi zəif olan icmalardan olan təhsilalanlarla bağlıdır.

ABŞ-ın Tom Djoynera Fondu, Amerika Müəllimlər Federasiyası və "Math+Science" Milli təşəbbüs qrupu mədəniyyət, identiklik və pedaqogikada eynilik kimi məsələlərin necə yaranmasını tədqiq etməklə tələbələr üçün təhsili daha aktual və qarşılıqlı əlaqəni təmin etmək məqsədilə layihə işləyib. Komanda şəxsiyyətyönlü pedaqogikanın müəyyən olunması üçün yeni struktur yaradıb, mövcud tədqiqatları anlamaq üçün ədəbiyyatların geniş icmalını keçirib və cəlbedici, genişlənmə imkanı olan şəxsi tədris təcrübəsinin hazırlanmasında müəllimlərə dəstək üçün alətlər və tapşırıqlar hazırlamağa başlayıb. Kütləvi fərdiləşdirmə ilə biz qlobal tendensiyalar, daha çox təhsil dünyasında STEM təhsilin bütün təhsilalanlar üçün daha şəxsi firavanlıq əhəmiyyəti kəsb etməsini gözləyirik.

### Müəllimlərin fəallığı artıb

2018-ci il ərzində çox sayda müəllimlərin siyasi sahədə fəallığına dair proqnozlar özünü doğruldub. Bu ilin yazında ABŞ-da müəllimlərin fəallığının yeni dalğası geniş vüsət alır. The Washington Post-un yazdığına görə, müəllimlik peşəsi geniş dəstəklənir, o cümlədən müəllimlərin əməkhaqları artırılır. Amma xəbərdarlıq əlamətləri də var: İllik "Phi Delta Kappa" sorğusu göstərib ki, baxmayaraq müəllimlərə dəstək artıb, amerikalıların əksəriyyəti uşaqlarının müəllim olmasını istəmirlər. STEM üzrə tərəfdaşlardan bu potensial zərərli ictimai rəyə fəal reaksiya olub. Lakin müəllimlərin aktivliyi, eləcə də onların STEM-in digər mütəxəssislərindən daha çox xoşbəxt olmasına dair inandırıcı sübutlar bu sahəyə yeni qüvvələrin gəlməsini şərtləndirir.

### Müəllim və şagirdləri inkişaf etdirən məktəb

Çox vaxt məktəb liderləri dixotomiya yaradırlar: ya şagirdlər, ya da müəllimlər inkişaf edə bilərlər, amma hər ikisi deyil. Əksi doğrudur. Tədqiqatlar göstərir ki, təhsilalanları uğura aparan yeganə davamlı yol məktəblərdir, məhz burada müəllimlər və şagirdlər inkişaf edir. STEM müəllimlərinin əsas çatışmazlığının səbəblərinə həsr olunmuş tədqiqat aşkar edib ki, dəyişikliklər ən çox onlar üçün işlək mühitlə bağlıdır. Müəllimlərin çoxu bildirir ki, onlara həmkarları ilə əməkdaşlıq, peşəkar inkişafda iştirak, sinifdə yeni yanaşmalarla təcrübə aparmaq üçün vaxt lazımdır. Biz bilirik ki, STEM, ümumiyyətlə, təhsil sistemində potensial təsir gücünə malikdir. Ümid edirik ki, erkən inkişaf, yaradıcı iş mühitinin formalaşdırılması bütün təhsil sistemi üçün dalğa effekti yaradacaq, daha artıq diqqət, enerji fəal məktəblərin yaradılması istiqamətində yönələcək ki, orada həm müəllimlər, həm də şagirdlər inkişaf edə biləcək.

# ELAN

## 2019-cu il 22-27 sentyabr tarixlərində Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın "Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları" mövzusunda 45-ci illik konfransı keçiriləcək

Dövlət İmtahan Mərkəzi qiymətləndirmə alətləri hazırlayan elmi-tədqiqat mərkəzlərini, ali təhsil müəssisələrini, uyğun dövlət orqanları və digər maraqlı tərəfləri Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın Bakıda keçiriləcək 45-ci illik konfransına (IAEA 2019) öz elmi tezislərini təqdim etməyə dəvət edir. Konfrans 2019-cu il 22-27 sentyabr tarixlərində "Fairmont Baku" otelində keçiriləcək. Konfransın mövzusu "Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları"-dır.

Qeyd edək ki, Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiya (IAEA) ali və orta ümumtəhsil müəssisələrində, müxtəlif təşkilatlarda və iş yerlərində təhsilin qiymətləndirilməsində iştirak edən qurumlar üçün yaradılmış qlobal forumdur. IAEA hər il təhsildə qiymətləndirmənin keyfiyyətinin artırılması və bu sahədə beynəlxalq əməkdaşlığın inkişafı məqsədi ilə illik beynəlxalq konfranslar təşkil edir.

Konfransda aşağıdakı mövzulara uyğun tədqimatların ediləcəyi nəzərdə tutulur:

- Qiymətləndirmənin qərar-qəbuletmə prosesində istifadəsi;
- Qərar qəbuletmədə qiymətləndirmənin etibarlılığı və uyğunluğu;
- Daha yaxşı qərar qəbul etmək üçün qiymətləndirmə texnikası;
- Daha yaxşı proqnozlar üçün əlavə dəyər ölçülərinin yaradılması;
- Təhsildə və dövlət qulluğunda qiymətləndirmənin institusional islahat aləti kimi istifadəsi;
- Dövlət və özəl sektorda test və işə qəbul siyasəti ilə bağlı imkanlar və problemlər;
- İnsan resurslarının idarə edilməsində Səriştə Modelinin tətbiqi;
- Universitetlərə və dövlət qulluğuna qəbulda qiymətləndirmə alətlərinin gələcəyi;
- Təhsil sistemində və yaxşı idarəetmədə qiymətləndirmənin innovativ alət kimi istifadə edilməsi;
- Qiymətləndirmə verilənləri və qərar qəbuletmə məsuliyyəti;
- E-qiymətləndirmə və texnoloji-üstünlüklü platformalar;
- Təhsil və işçi qüvvəsinin qiymətləndirilməsində operativ tədqiqat.

| |
|---|
| Qeydiyyat başlanır: 15 dekabr, 2018 |
| Erkən qeydiyyat başa çatır: 14 iyul, 2019 |
| Son qeydiyyat başa çatır: 01 sentyabr, 2019 |
| Konfransın tarixi: 22-27 sentyabr, 2019 |

Konfransda iştirak etmək istəyən şəxslər verilmiş cədvələ uyğun olaraq qeydiyyatdan keçə bilərlər.

Bu konfrans tədqiqatçılar və peşəkarlar üçün mövcud proses və nailiyyətlər haqqında fikirlərini paylaşmaq, eləcə də qiymətləndirmə və qərarvermədə yeni tendensiyalar yaratmaq imkanlarını nəzərdən keçirməyə şərait yaradacaqdır.

Daha ətraflı məlumat üçün konfransın rəsmi səhifəsini ziyarət edə bilərsiniz: http://iaea2019.org/

# Könüllülər üçün təlimlər

Sifai SƏFƏROVA

"Regional İnkişaf" İctimai Birliyi (RİİB) könüllülərin fərdi inkişafına dəstək verilməsi, bilik və dünyagörüşlərinin artırılması, asudə vaxtlarının səmərəli təşkili və gənclər arasında sosial əlaqələrin inkişaf etdirilməsi məqsədilə yeni fəaliyyət proqramına başlayıb.

Üç ay davam edəcək proqram çərçivəsində könüllülər üçün müxtəlif mövzularda təlimlərin, seminarların, interaktiv oyunların, müsabiqələrin keçirilməsi, kursların, müxtəlif müəssisə və təşkilatlara infoturların təşkili, eləcə də onların RİİB-in təşkilatçılığı ilə keçirilən tədbirlərdə, layihələrdə və sosial aksiyalarda iştirakı nəzərdə tutulur.

Proqram çərçivəsində ilkin mərhələdə regionlardan olan 300-dən çox könüllü üçün "Komanda işi" mövzusunda təlimlər keçirilib.

Təlimlərdə gənclərə, həmçinin komanda çərçivəsində fəaliyyət, uğur qazanmanın şərtləri, ünsiyyət və digər mövzularda məlumatlar verilib, müxtəlif interaktiv oyunlar keçirilib.

"AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktorun müavini**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74

**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6435, **Sifariş** 2645

**Məsul növbətçi:** Ş.Cəfərov

# Məktəbli idmançılar üçün yay düşərgəsi

"Təhsil" Respublika İdman Mərkəzinin təşkilatçılığı ilə Mərkəzin "Zuğulba" Tədris İdman Bazasında idman-sağlamlıq düşərgəsi təşkil edilib.



Düşərgədə Təhsil Nazirliyinin təbeliyində fəaliyyət göstərən uşaq-gənclər idman-şahmat məktəblərinin yüksək nəticə göstərmiş idmançıları iştirak edirlər.

Karate, badminton, boks, stolüstü tennis, həndbol bölmələri üzrə 100 məktəbli idmançının qatıldığı düşərgədə hazırlanmış proqramlar əsasında onların məşq və istirahətlərinin səmərəli keçirilməsi təmin olunub.

Düşərgənin təşkil olunmasında məqsəd məktəblilərin asudə vaxtlarının səmərəli təşkili ilə yanaşı, onların idmanda daha yüksək nailiyyət əldə etməsi üçün stimul yaratmaq, idmançılar arasında dostluq əlaqələrini möhkəmləndirməkdir.

# "Dünyamsan Azərbaycan"

## 11 yaşlı uşaq qəlbindən gələn səslər

**Hüseyn ŞAHBƏNDƏYEV,**
*Əməkdar müəllim,*

Nemətsə də gözəl şeir... Bu yazıya ölməz Səməd Vurğunun misrası ilə başlamağımı təsadüf sayma, əziz oxucu. Haqqında bəhs etdikcə, doğrudan da, şeirin nemət olduğunu sən də bir daha təsdiqləyəcəksən. Buyur, tanış ol: Sevindik Nəsiboğlu- Xırdalan şəhər 9 nömrəli tam orta məktəbin 5-ci sinif şagirdi, iki şeir kitabının müəllifi, bir sıra agentliklərin və ictimai birliklərin "Ən yaxşı uşaq yazar" kimi tanıdığı 11 yaşlı şair...

"Ozan" nəşriyyatının 2018-ci ildə nəfis şəkildə nəşr etdiyi "Dünyamsan, Azərbaycan" kitabı qarşımdadır. Açığı, kitabı əlimə alanda keçirdiyim ilk hiss belə idi: "10-11 yaşlı uşaq nə yazacaq". Ancaq oxuduqca, uşaq təxəyyülünün zənginliyini gördükcə, poetik forma və məzmun dolğunluğunun əksər şeirlərdə bir-birini tamamladığını müşahidə etdikcə əvvəlki fikirlərdən imtina etməli oldum. Bəzi nümunələrə nəzər salaq:

*Sən bizim ürəyimiz,*
*Sən bizim canımızsan.*
*Zirvələri fəth edən*
*Azərbaycanımızsan!*

*Tarixi səs-soraqlı,*
*Qobustanı növraqlı,*
*Azını daş çıraqlı*
*Azərbaycanımızsan!*

və ya:

*Mənim qəlbim yaralıdır,*
*Azərbaycan, Azərbaycan!*
*Başın niyə bəlalıdır,*
*Azərbaycan, Azərbaycan!..*

*Ordum keçər bu sınağı,*
*Əldə üçrəngli bayrağı.*
*Azad edər Qarabağı,*
*Azərbaycan, Azərbaycan!*

Balaca şairin toxunduğu mövzuların dairəsi yaşına görə müqayisəyəgəlməz dərəcədə zəngin və genişdir: vətən və onun gözəlliklərinin tərənnümü, yurd sevgisi və işğal olunmuş ərazilərimiz, Azərbaycan əsgəri və Milli Qəhrəmanlarımızla qürur, Qarabağ və torpaqlarımızın azad olunacağına inam, Azərbaycanın görkəmli tarixi şəxsiyyətləri, ana, milli-mənəvi dəyərlərimiz və s. Bu mövzuların, demək olar ki, hamısına aid kitabda uğurlu nümunələrə rast gəlmək mümkündür.

Məlumdur ki, poeziyada ana haqqında nümunələr daha çoxdur. Sevindik Nəsiboğlunun da bu mövzuda anaya hörmət, məhəbbət və ehtiram ifadə edən şeirləri var. Ancaq onun ata haqqında yazdığı "Atam işdən gələndə" şeiri valideynə övlad məhəbbətini daha gözəl əks etdirir. Sevindik bu şeirlə işdən, səfərdən qayıdan ataların qarşısına yüyürən bir məsum uşaq obrazını canlandırmağı bacarıb:

*Atam işdən gələndə,*
*Evimizə nur gəlir.*
*O, bir azdan dincəlir,*
*Çünki uzaq yol gəlir.*

*Atam qapını döyür,*
*Biz sevinclə gəlirik.*
*Sonra üzündən öpüb,*
*"Ata gəldi"deyirik...*

Təbii ki, ömrünün uşaqlıq çağlarını, məktəbli dövrünü yaşayan bu balaca şairin yazılarında məktəb, müəllim, uşaq yoldaşları qırmızı xətlə keçir. Ancaq bu şeirlərdə də S.Nəsiboğlu yaşından böyük görünür. Bəlkə, 30 ilə yaxın bir zamanda xain qonşularımızın xalqımızı məcburən üzbəüz qoyduğu müharibə bizim körpələrin qəlbini elə yaralayıb ki, onlar, necə deyərlər, "başlarından böyük hisslər"lə yaşayır, düşüncələrə dalırlar:

*Sentyabrın 15-i,*
*Təzə dərsə başlayaq.*
*Hamımız bacarıqlı,*
*Layiqli övlad olaq.*

*Biz tezliklə böyüyək,*
*Düşmənlərlə döyüşək,*
*Düşmənə qalib gəlib,*
*Layiqli övlad olaq...*

Uşaq aləmi müqəddəs, saf və ləkəsiz duyğular məskənidir. Uşaqlar üçün şeirlər yazmaqla hər bir müəllif bu müqəddəs aləmə baş vurur, bu sehrli və möcüzəli dünyaya daxil olmağa çalışır. Əgər kimsə bu aləmdə yaddaqalan bir əsər yaratmaq istəsə, uşaqcasına düşünməyi bacarmalıdır. Sevindiyin isə buna ehtiyacı yoxdur. Çünki




həmin dövrü yaşayır, ona görə də hissləri daha səmimi və təbii təsir bağışlayır. "Mənim keçim" şeirinə nəzər salaq:

*Səhər-axşam, gündüz-gecə,*
*Yuxusu da dönüb heçə,*
*Qoymuram qırağa keçə,*
*Otlar, otlar mənim keçim.*

Və ya:

*-Ata, mənə maşın al,*
*-Alaram, oğlum.*
*-Ata, mənə kitab al,*
*-Alaram, oğlum,*
*-Ata, mənə bıçaq al,*
*- Yox, almaram, oğul,*
*-Bıçaq sənə zərərlidir,*
*Bıçaq ali, qolu kəsir...*
*Ağacı, həm kolu kəsir.*
*("Ata-oğul söhbəti")*

Sevindik Nəsiboğlunun şeirlərinin müsbət xüsusiyyətləri haqqında fikirlərimizi burada dayandırıb bəzi tövsiyə və arzularımızı bildirmək istərdim: əvvəla, yazının əvvəlində ifadə olunduğu kimi bədii sözə, şeirə, nəsrə və s. əsl nemət kimi baxmaq lazımdır. Onda bədii sözün müqəddəsliyi, onun ilahi nemət olduğu fikri səni sözə daha həssas və ehtiyatlı yanaşmağa sövq edəcək, o zaman sən çoxsaylı yazılarının içərisindən daha sanballılarını seçə, cilalaya və sahiblənə biləcəksən.

İkincisi, hər hansı yaşda olsa, yaradıcı adam daha çox oxumalı, mütaliəyə geniş vaxt ayırmalıdır. Sən Azərbaycan və dünya ədəbiyyatı incilərini daha çox mütaliə etməli, yazıdan-yazıya püxtələşməlisən.

Nəhayət, bu gün şeir kitablarında müəyyən sayda poetexniki tələblərə cavab verməyən, bədii cəhətdən zəif şeirlərin olması təbiidir. Gələcəkdə ədəbiyyatşünaslığı bir elm kimi mənimsədikcə bu qüsurlar da aradan qalxacaq, yəqin ki, bunların üzərində yenidən işləməli olacaqsan.

Sənə yaradıcılıqda uğurlar arzulayıram, ancaq unutma ki, "...Şair olan qəm də yeyir!..".

# Etibarsız sayılır

**BÖTL-in "Dədə Qorqud" filialını** 2013-cü ildə bitirmiş Əlizadə Sənan Bayram oğluna verilmiş A-213186 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**3 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2006-cı ildə Əliyev Ülvi Əbülfət oğluna verilmiş BB-014370 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Aqrar Universiteti** tərəfindən 2010-cu ildə Əsgərov Abbas Əsgər oğluna verilmiş B-191375 nömrəli bakalavr diplomu və dipoma əlavə itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Qurudərə kənd ümumi orta məktəbinin IX sinfini 1996-cı ildə bitirmiş Məmmədova Mahirə Sədaqət qızına verilmiş 056209 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 32 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Həsənov Mehman Faiq oğluna verilmiş E-023546 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 17 nömrəli tam orta məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Yuşin Roman Vəçeslav oğluna verilmiş A-244890 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı 2 nömrəli Baza Tibb Məktəbinin** Laçın filialı tərəfindən 1993-cü ildə Rəhimova Nəzakət Musa qızına verilmiş AB-II-016828 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad İnstitutu** tərəfindən 1993-cü ildə Kərimov Lazım Babakərim oğluna verilmiş ЦВ-859721 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** Zaur Cəfərov adına 3 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Abdullayev Nurlan Elşən oğluna verilmiş A-374696 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2014-cü ildə Piriyeva Vəfa Hilal qızına verilmiş A-045230 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Şamaxı şəhər** C.Cəbrayılbəyli adına 5 nömrəli orta məktəbin (indiki Şamaxı Avropa Liseyi) IX sinfini 2007-ci ildə bitirmiş Əhmədov Şirməmməd İlqar oğluna verilmiş A-525942 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 265 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş İsgəndərova Fəridə Əhməd qızına verilmiş A-439524 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Səbətlər kənd tam orta məktəbini 2015-ci ildə bitirmiş Mustafayev Cavid Zəki oğluna verilmiş A-463975 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 139 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Həmzəyev Emin Şirvanoviçə verilmiş A-145303 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** S.Məmmədov adına Zəyəm- Cırdaxan kənd tam orta məktəbini 2008-ci ildə bitirmiş Vəliyeva Qaratel Rafiq qızına verilmiş B-539779 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Zəyəm qəsəbə 2 nömrəli tam orta məktəbi 1984-cü ildə bitirmiş Salahov Vəli Ədil oğluna verilmiş 538553 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər şəhər** Ə.Məmmədov adına 1 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Naibova Səbunə Murad qızına verilmiş A-648863 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** 2 nömrəli tam orta məktəb-liseyi 2012-ci ildə bitirmiş Pirquliyeva Jalə Məzahir qızına verilmiş A-129648 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Bucaq kənd ümumi orta məktəbini 2019-cu ildə bitirmiş Allahverdiyev Nazim Şamo oğluna verilmiş C-333112 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Aqrar Universiteti** tərəfindən 2018-ci ildə Sərdarova Aytən Əhliman qızına verilmiş A-154054 nömrəli fərqlənmə bakalavr diplomu və bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Saray qəsəbə 1 nömrəli tam orta məktəbin IX sinfini 1992-ci ildə bitirmiş İslamova Ruhiyyə Sadıq qızına verilmiş A-550254 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Kəngərli rayon** Qarabağlar kənd 2 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Bayramov Nicat Əlövsəd oğluna verilmiş A-276952 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı şəhər 38 nömrəli tam orta məktəbin direktoru Yaqut Əfəndiyeva və pedaqoji kollektivi məktəbin dil-ədəbiyyat müəllimi Şəmisdan Cəfərovaya həyat yoldaşı

**AĞA HƏMDULLA OĞLU CƏFƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.







# Peşə təhsili zamanın tələbinə çevrilir

⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

## *Amil Əlili:* “Peşə məktəblərini bitirənlərin işlə təminatında ürəkaçan statistika qeydə alınır”

Yeni ixtisaslar, əsasən sənaye sahəsi üzrədir. Həmin sahə üzrə kadrlar “Torna və frezer dəzgahların operatoru”, “Avtomobil diaqnostikası və təmiri ustası”, “Sənayedə quraşdırma işləri üzrə usta”, “Elektronika ustası”, “Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru”, “İnşaat ustası”, “Veb dizayner və proqram təminatçısı”, “Avtomatika üzrə usta” “Torna və frezer dəzgahların operatoru” ixtisasları üzrə Koreya standartları əsasında yeni yaradılan Sənaye və İnnovasiyalar üzrə Bakı Peşə Təhsili Mərkəzində hazırlanacaq. Mərkəzdə hazırlığı təşkil ediləcək.

### Bu ixtisaslar sevilir

Ötən il aşpaz, əməliyyatçı mühasib, bərbər ixtisasları üzrə hətta ödənişli əsaslarla da təhsil almaq istəyənlərin sayı kifayət qədər çox olub. Nəticədə, aşpaz, veb dizayner və turizm agenti ixtisaslarına güclü rəqabət formalaşıb və həmin istiqamətlər üzrə orta attestat balı 4 baldan yuxarı olanlar qəbul olunub. Bəs, bu il?

Təhsil Nazirliyi yanında Dövlət Peşə Agentliyinin direktor müavini Amil Əlilinin sözlərinə görə, artıq bir neçə gündür davam edən müraciətlərin təhlili göstərir ki, ötən ilin sevilən ixtisasları bu il də seçiləcək. Məsələn, bir il ərzində münasibətin dəyişmədiyi aşpaz, dərzi, bərbər kimi ixtisaslar var. Bu il turizm təşkilatçısı, neft və qaz operatoru, heyvandarlıq mütəxəssisi də ən çox seçilənlərdəndir. Ancaq bəzi ixtisaslar da var ki, artıq zamanın tələbi ilə ayaqlaşmır. Nəticədə ya tamamilə sıradan çıxır, ya da bazara yeni daxil olan başqa ixtisaslarla birləşir. Misal üçün, bir neçə il bundan əvvəl kompüter operatoru ixtisası üzrə kadr tələb olunurdusa, sonradan həmin ixtisas sıradan çıxıb və kompüter ustası və operatoru, veb-dizayner və proqram təminatçısı ixtisasları üzrə kadr hazırlığına başlanılıb.

Yəni, iqtisadiyyatın inkişafı ilə əlaqədar olaraq ixtisasların qovuşması həyata keçirilir. Nəticədə bir sıra ixtisaslar sıradan çıxır, əvəzinə yeniləri bazara daxil olur. A.Əlili deyir ki, bu proses o qədər sürətlə baş verir ki, hər il kadr hazırlığı həyata keçirilən ixtisasların sayı və siyahısı dəyişir: “Bu gün peşə təhsili təsnifatına daxil olan ixtisasların çoxu mövcud əmək bazarının tələblərinə uyğun gəlmir. Odur ki, adı tarixə düşən ixtisasların sayı az deyil. Hər il siyahıya əmək bazarının tələblərinə uyğun olan yeni ixtisaslar daxil edilir. Ötən il 168 ixtisas üzrə kadr hazırlığına başlanılıb. Daha əvvəl isə bu say 176 idi. Bu il isə kadr hazırlığı aparılan ixtisasların sayı azalaraq 145-ə düşüb. Son 3 ilin statistikasının müqayisəsi fərqi görməyə imkan verir. Ona görə də peşə ixtisası üzrə təsnifatın yenilənməsinə ehtiyac duyulur. Bu, qısamüddətli iş deyil”.

Ona görə də əmək bazarının sürətlə dəyişən tələblərinə uyğun olaraq hər il dəyişikliyə məruz qalan peşə təhsili təsnifatının yenilənməsinə qərar verilib. Əmək bazarını təmsil edən işəgötürənlərin, peşə təhsili müəssisələrinin və maraqlı tərəflərin nümayəndələrinin iştirakı ilə yaradılan İşçi Qrup peşə təhsili üzrə ixtisasların təsnifatına yenidən baxacaq.

**Hər il siyahıya əmək bazarının tələblərinə uyğun olan yeni ixtisaslar daxil edilir. Ötən il 168 ixtisas üzrə kadr hazırlığına başlanılıb. Daha əvvəl isə bu say 176 idi. Bu il isə kadr hazırlığı aparılan ixtisasların sayı azalaraq 145-ə düşüb. Son 3 ilin statistikasının müqayisəsi fərqi görməyə imkan verir. Ona görə də peşə ixtisası üzrə təsnifatın yenilənməsinə ehtiyac duyulur. Bu, qısamüddətli iş deyil.**

### İşəgötürənlə əməkdaşlığın nəticəsi: məzunların 60 faizindən çoxu işlə təmin olunurlar

Peşə təhsili müəssisələri isə işəgötürənlərin çoxsaylı müraciəti əsasında əmək bazarının tələbinə uyğun yeni ixtisaslar və həmin ixtisaslar üzrə kadr hazırlığını təklif edirlər. İxtisaslar üzrə tədris olunan proqramların hazırlanması prosesində işəgötürənlər də birbaşa iştirakçıdırlar. A.Əlilinin sözlərinə görə, işəgötürənlərin nümayəndələri builki qəbul planının hazırlanması prosesinə də fəal qoşulublar. “Peşə təhsili müəssisələrinə qəbul planı həm peşə təhsili müəssisələrinin maddi-texniki bazası, infrastrukturu, həm də işəgötürənlərin sifarişi əsasında əmək bazarının dəyişən tələbi nəzərə alınmaq şərti ilə formalaşıb”, - deyə direktor müavini bildirib.

A.Əlili onu da əlavə edib ki, ildən-ilə genişlənən əməkdaşlığın, işəgötürənlərin peşə təhsilinin təşkilində fəal iştirakının nəticəsidir ki, peşə məktəblərini bitirənlərin işlə təminatında ürəkaçan statistika qeydə alınır: “Məsələn, turizm, xidmət, informasiya texnologiyaları və başqa sahələr üzrə həyata keçirilən layihələrin nəticəsində məzunlarımızın 60 faizindən çoxu işlə təmin olunurlar”.

A.Əlili deyib ki, işəgötürənlərin prosesə cəlbi getdikcə daha böyük miqyasa çatacaq. Bunun üçün Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi işəgötürənlərin peşə təhsilinə inteqrasiyasını stimullaşdırmaq məqsədilə qaydalar layihəsi hazırlayıb. Qaydalar layihəsi peşə təhsili ilə bağlı qəbul edilən Strateji Yol Xəritəsinə uyğundur: “İşəgötürənlərin peşə təhsilinə inteqrasiyasını stimullaşdıran bir sıra müddəalar həm “Peşə təhsili haqqında” Qanunda, həm də Peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsində öz əksini tapıb. Bununla bağlı ilkin qaydalar hazırlanaraq aidiyyəti qurumlara təqdim edilib. Hazırda müvafiq qurumların rəy və təklifləri nəzərə alınmaqla layihə üzərində iş davam etdirilir. Yaxın vaxtlarda layihə yenidən aidiyyəti qurumlara təqdim ediləcək”.

Direktor müavini nəzərə çatdırıb ki, qaydalarda “Peşə təhsili haqqında” Qanunda nəzərdə tutulan məsələlərlə bağlı təkliflər irəli sürülüb: “Qanunda işəgötürənlərin stimullaşdırılması ilə bağlı qısa və uzunmüddətli perspektivdə maliyyə, hüquqi və digər sahələr üzrə müvafiq güzəştlərin verilməsi nəzərdə tutulur ki, bu da özəl sektorun peşə təhsili ilə tərəfdaşlığa daha çox maraq göstərməsinə imkan yaradacaq. Peşə təhsili müəssisələri ilə işəgötürənlər arasında əməkdaşlığın əsas istiqamətlərindən biri işəgötürənlərin peşə təhsili və təlimi sisteminə inteqrasiyası, yüksək ixtisaslı kadrlarının tədris prosesinə cəlb edilməsidir. Qanunda peşə təhsili alanların təcrübə keçmələri üçün xüsusi meyarlar əsasında seçilmiş idarə, müəssisə, fermer təsərrüfatı və təşkilatlara müəyyən imtiyazların verilməsi, işəgötürənlərin istehsalat təcrübəsinə rəhbər təyin etdiyi mütəxəssislərə təhsil müəssisəsi tərəfindən əlavə əməkhaqqının ödənilməsi də nəzərdə tutulub. Strateji Yol Xəritəsinə görə, işəgötürənlərin peşə təhsilinə inteqrasiyasını təmin etmək üçün kadr hazırlığı onların tələbatı nəzərə alınmaqla aparılmalıdır. Bunun nəzərə alınmaması diplomlu işsizlərin sayının artması deməkdir. Buna görə də istənilən sahədə kadr tələbatı müəyyənləşdirilərkən ilk növbədə işəgötürənlərin tələbi nəzərə alınmalıdır”.

### “ASAN Peşə”dən ixtisas seçin ki, işiniz asan olsun!

Beləliklə, vətəndaş seçir, işəgötürən sifariş verir, peşə məktəbləri isə əmək bazarının tələb etdiyi kadrları hazırlayır. Hər il tələb dəyişdiyi kimi, təkliflər də dəyişir. Ayrı-ayrı ixtisaslar üzrə kadr hazırlığını təşkil edən peşə məktəblərinin sayı və keyfiyyəti də tələblərin fonunda yenilənir. Növbəti tədris ili üçün peşə təhsili sahəsində ən böyük yenilik tamamilə yeni standart, yeni təhsil proqramı ilə təhsil verəcək Sənaye və İnnovasiyalar üzrə Bakı Peşə Təhsil Mərkəzinin fəaliyyətə başlaması olacaq. Yeni Peşə Təhsil Mərkəzinin hazırlığı təşkil ediləcək 8 ixtisası da peşə məktəbində oxumaq istəyənlərin qarşısına qoyulan təkliflər siyahısındadır.

Bir sözlə, nəinki bu 8 ixtisas, ümumiyyətlə, Azərbaycandakı peşə məktəblərinin təklif etdiyi 145 ixtisasdan hansına yiyələnəcəyiniz öz əlinizdədir. Ancaq bir önəmli məqamı da unutmayın. Seçiminiz düzgün olmalıdır ki, avqustun 21-də elan olunacaq uğur qazananlar siyahısına adınız düşsün.

“ASAN Peşə”, sadəcə peşə məktəblərinə qəbul məqsədi ilə həyata keçirilən layihənin adı deyil, istənilən peşəyə yiyələnməyin də ən asan yoludur. Təhsil səviyyəsindən, ixtisasından asılı olmayaraq, hər kəsin yolu burdan düşə bilər. Odur ki, vaxtikən “ASAN Peşə”dən ixtisas seçin ki, işiniz də asan olsun!

# Beynəlxalq şirkətlərin nümayəndələri Peşə Təhsil Mərkəzində



“Suez” şirkətinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə rəsmi nümayəndələri, həmçinin “Sigma Technical Services” şirkətinin rəhbəri Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin bazasında yaradılan yeni Peşə Təhsil Mərkəzi ilə tanış olublar.

Qonaqlara məlumat verilib ki, mərkəz Azərbaycan və Koreya hökumətləri arasında razılaşmaya uyğun olaraq, Koreya təhsil standartları əsasında yaradılan ilk pilot təhsil müəssisəsidir. Təhsil müəssisəsi mexanika, elektronika, elektrik mühəndisliyi, sənayedə quraşdırma işləri, tikinti, informasiya texnologiyaları, avtomobil və avtomatlaşdırma istiqamətləri üzrə ən müasir avadanlıq, təlim və tədris vəsaitləri ilə təchiz olunub.

Sonra beynəlxalq şirkətlərin nümayəndələri ilə əməkdaşlıq və birgə layihələrin həyata keçirilməsi imkanları müzakirə olunub. Əməkdaşlıq çərçivəsində şirkətlər tərəfindən tələbələrin peşəkar bacarıqlarının inkişafı məqsədilə iş yerində təcrübə proqramlarının təşkili, məzun tələbələrin işlə təmin olunmasına dəstəyin göstərilməsi nəzərdə tutulub. Mərkəz tərəfindən isə şirkətlərin işçi heyəti üçün peşəkar inkişaf proqramlarının təşkili, tədqiqatların aparılması məqsədilə müvafiq şəraitin yaradılması planlaşdırılır.

Yeni təhsil müəssisəsi 2019-2020-ci tədris ilindən fəaliyyətə başlayacaq. Qlobal sənaye tələbatına uyğun olan rəqabətqabiliyyətli kadr hazırlığına istiqamətlənən mərkəz artıq Sumqayıt Texnologiyalar Parkı, “Huawei”, “Mitsubishi”, “EduMedia”, “Subaru”, “Optimal Electronics”, “Tech Academy”, “Honda”, “Helind”, “Mazda”, “Azedunet”, “Toyota Azərbaycan”, “Mars Academy”, “Turox Aero Technologies” kimi ölkənin ən qabaqcıl müəssisələri ilə əməkdaşlığa başlayıb.